

Milli azadlıqdan şirin nemət yoxdur!


# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

13 may 2026-cı il, çərşənbə
№ 082 (7149)
Qiymәti 60 qəpik


# Sülhün müəllifi bizik!



Bax səh. 2




Bax səh. 2

## Böyük Zəfərə aparan strateji yolun başlanğıcı...

Bax səh. 5

## Qarabağ və Şərqi Zəngəzura həyat qayıdır...

İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsi postmüharibə dövrünün ən əlamətdar hadisələrindəndir. Müharibəni şanlı Zəfərlə başa vuran, öz gücünə ərazi bütövlüyünü və suverenliyini tam təmin edən qalib Azərbaycan quruculuq sahəsində də dünyaya nümunə göstərir.

Artıq Qarabağ və Şərqi Zəngəzura həyat qayıdır. Burada infrastrukturun, şəhər və kəndlərin müasir yanaşmalar əsasında bərpası ilə paralel şəkildə, ərazilərin məskunlaşdırılması da uğurla davam etdirlir. Elə bu günlərdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərə növbəti dəfə səfərə gələrək burada yeni təməlqoyma, açılış tədbirlərinə qatılıblar, həmçinin doğma yurd yerlərinə qayıdan soydaşlarımızla görüşərək onların sevincinə şərik çıxıblar. “Biz - bu torpaqların sahibləri nəinki bu torpaqları düşmən əlindən döyüşərək aldıq, şəhidlər verərək aldıq, eyni zamanda, bu torpaqları canlandırdıq”, - deyə dövlətimizin başçısı Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşdəki çıxışında bildirib.

Bu günlərdə Cəbrayıl rayonunun Şükürbəyli kəndi doğma sakinlərini qarşılayıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şükürbəyli kəndinin açılışında iştirak ediblər. Dövlətimizin başçısı əvvəlcə kənddə inşa edilmiş 360 şagird yerlik məktəb...

Bax səh. 3



Bax səh. 4

## YAP nümayəndə heyəti Çində səfərdədir

## Milli Məclisin iclasında...

Bax səh. 5

## Hərbçilərimiz mina terrorunun qurbanı olub

Bax səh. 5

## Dayanıqlı inkişaf göstəriciləri

Bax səh. 6

## MEDİA-da dəyirmi masa...

Mayın 12-də Medianın İnkişafı Agentliyi tərəfindən “Prezident İlham Əliyevin sülh strategiyası sabitliyin qarantıdır” mövzusunda dəyirmi masa təşkil edilib. Dəyirmi masada çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli regional və qlobal çağırışların geniş vüsət aldığı müasir dövrdə davamlı sülhün təmin olunmasının, təhlükəsizliyin möhkəmləndirilməsinin və dayanıqlı inkişaf mühitinin formalaşdırılmasının dövlətlərin əsas prioritetlərindən olduğunu bildirib. O qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl siyasət regionda əməkdaşlıq münasibətlərinin genişlənməsi, konstruktiv dialoqun inkişafı və uzunmüddətli etimad mühitinin formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanın sülh siyasətinin arxasında Prezident İlham Əliyevin qətiyyəti, dövlətin ardıcıl siyasi xətti və praktiki fəaliyyət dayanır. Bu baxımdan, Azərbaycanın yaratdığı model beynəlxalq münasibətlər sistemində xüsusi diqqət çəkir və yeni siyasi yanaşma nümunəsi kimi qiymətləndirilir. N.Məmmədli regionda sülh prosesi ilə bağlı vəziyyətin dəyərləndirilməsi baxımından medianın üzərinə düşən vəzifələrdən də bəhs edib.

Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov çıxışında beynəlxalq vasitəçilik təcrübələri və müasir geosiyasi reallıqlar kontekstində regional təhlükəsizlik məsələlərinə toxunub. Diplomat vurğulayıb ki, 2020-ci ildə Azərbaycan öz gücü və siyasi iradəsi...

Bax səh. 4

## Gələcək 10 ilin siyasi-iqtisadi istiqamətlərini müəyyənləşdirən görüş...

Bax səh. 7




Bax səh. 6

## Vücudunun məzarından qalxan ruh

Bax səh. 7

# Prezident Bakı Olimpiya Stadionunda...








## İlham Əliyev WUF13 ilə bağlı görülən işlərlə tanış olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də Bakı Olimpiya Stadionunun ərazisində mayın 17-22-də keçiriləcək "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusuna həsr olunan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ilə bağlı görülən işlərlə tanış olub.

AZƏRTAC xəbər verir ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev və WUF13 Azərbaycan Əməliyyat Şirkətinin icraçı direktoru Adil Məmmədov dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdilər.

Qeyd edək ki, tədbir məkanı Bakı Olimpiya Stadionu və onun ətrafında formalaşdırılan ümumi əməliyyat ətafı dairəsi üzrə 53 hektar təşkil edir. Bunun 43 hektarı əsas tədbir məkanı, 10 hektarı isə əsas nəqliyyat terminalı və parklanma-transfer zonası kimi planlaşdırılıb. Qeydiyyat, sessiya, sərgi, media, nəqliyyat, texniki təminat, könüllülər və məkan xidmətləri vahid əməliyyat sistemi kimi təşkil olunub.

Yüksək səviyyəli qonaqlar və nümayəndə heyətləri üçün xüsusi zonalar ayrılıb. Burada dövlət və hökumət nümayəndələrinin qəbulu, ikitərəfli görüşlər, istirahət sahəsi və qidalanma xidməti üçün xüsusi məkanlar nəzərdə tutulub.

Açılış və bağlanış mərasimlərinin təşkil ediləcəyi tədbir zalı 6000 nəfərə qədər iştirakçını qəbul edə biləcək. Mövcud hazırlıq səviyyəsi forumun yüksək iştirakçı axınını, çoxsaylı paralel tədbirləri və beynəlxalq nümayəndə heyətlərinin qəbullarını uyğun şəkildə planlaşdırmağa imkan verir. Forumun əsas müzakirə və paralel tədbirlərinin olacağı zona 3,55 hektar sahəni əhatə edir və iclas zalları, tematik sessiyalar, BMT tədbirləri, paralel görüşlər və ikitərəfli danışıqlar üçün nəzərdə tutulub. Burada müxtəlif formatlı rəsmi və işgüzar görüşlərin eyni vaxtda keçirilməsi üçün şərait var. Forum zamanı gündə təxminən 300-ə qədər paralel sessiya, görüş və tədbirin keçirilməsi planlaşdırılır.

Tədbirdə BMT-nin 6 rəsmi dili - ərəb, Çin, ingilis, fransız, rus və ispan dilləri ilə yanaşı, Azərbaycan və türk dillərində də sinxron tərcümə təmin ediləcək. Eyni zamanda, əlilliyi olan şəxslər üçün beynəlxalq işarə dili xidməti nəzərdə tutulub.

Bütün tədbir ərazisi üzrə 35-dən çox iaşə məntəqəsi nəzərdə tutularaq, məkanlar və açıq hava zonalarında yerləşdirilməklə iştirakçı axınının müxtəlif istiqamətlər üzrə paylanması və məkanda xidmət əlçatanlığının təmin olunmasına imkan verir.

İki hektar sahəni əhatə edən zonada isə "Media mərkəzi" ilə yanaşı, "Dəyirmi masa", "Xüsusi sessiya" və "Dialoq zalları" yerləşir. "Media mərkəzi"ndə iş sahəsi, canlı yayım və müsahibə otaqları, mətbuat konfrans zalı, TV studiyaları və media istirahət sahəsi mövcuddur. "Media mərkəzi"nin ümumi tutumu 600 nəfərdir. Burada eyni vaxtda isə 400 media nümayəndəsi işləyə bilər.

Ərazidə istirahət zonası da yaradılıb. Zonanın ümumi vizual və memarlıq yanaşmasında İçərişəhərdən ilhamlanan elementlərdən və Azərbaycan xalçaçılığına aid ornamentlərdən istifadə edilib.

Forum iştirakçıları üçün açıq hava formatında WUF13 Bulvarı yaradılıb. Bu sahə 2,5 hektar ərazini təşkil edir və iştirakçıların sərbəst hərəkəti, istirahəti, iaşə xidmətlərindən istifadəsi və tədbir məkanında şəhər mühiti ab-havasını hiss etməsi üçün nəzərdə tutulub. Bulvar ərazisi "Expo zonası"na keçid və açıq ictimai məkan funksiyasını daşıyır.

"Urban Expo zonası" isə 3,5 hektar sahəni əhatə edir. Ərazidə ölkə pavilyonları, beynəlxalq təşkilatlar, dövlət qurumları, yerli və regional hakimiyyət orqanları, özəl sektor, qeyri-hökumət təşkilatları, fondlar, təhsil və tədqiqat qurumları üçün sərgi sahələri yerləşir. Ümumilikdə, 121 pavilyon, o cümlədən 41 ölkə pavilyonu nəzərdə tutulub.

Forumun rəsmi mərasim komponentləri tədbir məkanının ümumi planlaşdırılmasında xüsusi nəzərə alınıb. Bayraq meydanı rəsmi mərasimlərin keçirilməsi üçün hazırlanıb və şəhər ab-havasının hiss olunması məqsədilə qala divarları motivləri ilə əhatələnib.

Nəqliyyat terminalı və parklanma-transfer funksiyalarını əhatə edən əlavə 10 hektarlıq zona ümumi əməliyyat ərazisinə inteqrasiya edilib. Burada avtobus, taksi xidmətləri, parklanma və iştirakçıların məkana yönləndirilməsi proseslərinin idarə olunması icra ediləcək. Şəhər üzrə nəqliyyat mübadilə mərkəzləri, elektrik avtobusları, taksi xidməti və hava limanı daşımaları tədbirin ümumi nəqliyyat planına inteqrasiya olunub.

Qeydiyyat prosesi üçün olan sahədə eyni anda 70 nəfərə, saatda isə 1000 nəfərə xidmət göstərmək imkanı var. Əlilliyi olan şəxslər üçün ayrıca akkreditasiya və qeydiyyat masaları nəzərdə tutulub. Qeydiyyat əməliyyatları tədbirin tələblərinə uyğun olaraq Azərbaycan tərəfinin əməliyyat komandası tərəfindən qurulub və iştirakçı axınının mərhələli idarə olunmasına uyğunlaşdırılıb.

Tədbirin fasiləsiz internet, yayım və rəqəmsal əməliyyat ehtiyaclarını təmin etmək üçün əsas və ehtiyat məlumat mərkəzləri, genişmiqyaslı fiber-optik və daxili şəbəkə infrastrukturu, simsiz şəbəkə avadanlıqları və fasiləsiz işləyəcək əməliyyat mərkəzi yaradılıb.

Diqqətə çatdıraq ki, Bakının ev sahibliyi edəcəyi BMT-nin Məskunlaşma Proqramı və Azərbaycan Hökuməti tərəfindən birgə təşkil olunan WUF13 dünyanın diqqətini yenidən ölkəmizə yönəldəcək. İndiyədək 178 ölkədən 30 mindən çox iştirakçı tədbirə qatılacağını təsdiqləyib. Bu mühüm tədbirdə Azərbaycan dövləti tərəfindən Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən misilsiz yenidənqurma və şəhərsalma modeli, həmçinin işğaldan azad edilmiş ərazilərimizdə tətbiq edilən "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, bu regionların "yaşıl enerji zonası"na çevrilməsi ilə bağlı görülmüş işlər müasir urbanizasiya və ekoloji bərpa sahəsində qabaqcıl nümunələr kimi dünya ictimaiyyətinə təqdim ediləcək. Qeyd edək ki, WUF13, həmçinin WUF tarixində ilk dəfə Liderlər Sammiti seqmentinin proqrama daxil edilməsi baxımından xüsusi əhəmiyyət daşıyır.

# Sülhün müəllifi bizik!



Azərbaycan regionda sabitliyin əsas təminatçısı kimi çıxış edərək Cənubi Qafqazda yeni siyasi-təhlükəsizlik arxitekturasının formalaşmasına nail olub. 2020-ci il Vətən müharibəsində, 2023-cü il antiterror tədbirlərində əldə olunan zəfər, suverenliyimizin və ərazi bütövlüyümüzün tam bərpası yalnız hərbi qələbə ilə məhdudlaşmadı, eyni zamanda bölgədə uzun illər davam edən qeyri-müəyyənliyə son qoyan fundamental geosiyasi reallıq yaratdı. Bu gün məhz Azərbaycanın təşəbbüsü və iradəsi ilə irəli sürülən sülh gündəliyi regional inkişafın əsas istiqamətini müəyyənləşdirir. Kommunikasiya xətlərinin açılması, iqtisadi inteqrasiya imkanları və təhlükəsizlik mexanizmləri Bakının müəllifi olduğu bu prosesin tərkib hissəsidir. Ötən ilin yayında Vaşinqtonda özünün beynəlxalq təsdiqini tapan sülh planı Bakının müəllifliyi ilə yeni gələcək vəd edir.

## İlham Əliyev: Biz istəməsəydik, sülh olmayacaqdı...

**Sülh prioriteti...**

Ölkəmizin qətiyyəti, müharibədə qazanılan zəfər, antiterror tədbirlərində əldə olunan uğur Azərbaycanın Cənubi Qafqazda bütün münasibətlər sistemini yenidən qurduğuna işarədir. Belə ki sülh sazişinin paraflanması, sabitliyin əldə olunması, kommunikasiya sistemlərinin açılması ilə bağlı mövqelərin uzlaşdırılması, nəhayət iki ölkə arasında münasibətlərin normallaşması istiqamətində davam edən proses onu göstərir ki, Azərbaycanın səyləri öz bəhrəsini verir. Təsadüfi deyildi ki, hətta münaqişənin davam etdiyi dövrlərdə belə Azərbaycan Ermənistanı sülhə səsləyir, beynəlxalq aləmi bu məsələyə diqqət yetirməyə çağırırdı - biz, hər zaman əməkdaşlıq və sabitlik kimi amilləri prioritet seçdiyimizi önə çəkirdik. Prezident İlham Əliyev mayın 10-da Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşündə bildirib ki, bu gün biz sülh şəraitində yaşayırıq və sülhün müəllifi də bizik: "Biz istəməsəydik, sülh olmayacaqdı".

**Bizim gücümüzə qarşı onların heç bir şansı yoxdur**

Azərbaycanın heç vaxt kiminsə torpağını ələ keçirmək kimi bir məqsədi olmayıb. Bizim siyasətimiz sülhə, sabitliyə və əməkdaşlığa əsaslanır. 2020-ci ildə Bakının Zəfər yürüşü bütünlüklə Ermənistanı diz üstə çökdürmüşdü. Məhz o şəraitdə belə Azərbaycan beynəlxalq hüquqa sadiqliyini nümayiş etdirdi - yalnız öz torpaqlarını işğaldan azad etməklə kifayətləndi. Azərbaycan bütün dünyaya göstərdi ki, ədalət uğrunda mübarizə həm də sülh uğrunda mübarizədir. Azərbaycan gücünü Vətən müharibəsində göstərdi - həm Ermənistan, həm də dəstəkçiləri, havadarları anladı ki, Azərbaycan bölgədə aparıcı gücdür. Dövlət başçısı Zəngilan şəhərindəki ilk yaşayış kompleksinə köçən ailələrlə görüşündə bildirib ki, biz istəsəydik, istənilən hərbi əməliyyatı istənilən yerdə keçirə bilərdik: "Bunu Ermənistan rəhbərliyi də bilir, onun arxasında duranlar da bilirlər. Nə qədər onun arxasında dururlar dursunlar, bilirlər ki, bizim gücümüzə qarşı onların heç bir şansı yoxdur, onlar acizdirlər. Gücləri var idisə, elə 2020-ci ildə kömək edərdilər də Ermənistana".

**Bizim belə niyyətimiz olmayıb, yoxdur və olmayacaq...**

Bakının Cənubi Qafqazda formalaşdırdığı yeni transformasiya, inkişaf və sabitlik bir sıra dairələrin planları ilə "üst-üstə" düşmür. Məsələn, artıq illərdir ki, Avropa "müşahidə" adı altında Ermənistanda özünün casus missiyasını yerləşdirib. Sirr deyil ki, bu missiya Fransanın bədnam layihəsi idi. Məqsəd isə Aİ-nin, Qərbin Ermənistanda hərbi mövcudluğunu təşkil etmək, kəşfiyyat işləri aparmaq, Ermənistanla Azərbaycan arasında münasiətləri gərginləşdirməkdir. Aİ-nin ard-arda missiya adı altında fərqli qrupları Ermənistana yerləşdirməsi də məlum qüvvələrin sülh prosesini əngəlləmək cəhdlərindən biridir. Bu missiyanın guya "məqsədi" Ermənistanı hər hansı bir təhlükədən qorumaqdır - amma əsl "missiya" tamam fərqlidir. Fransa anlayır ki, sülh prosesinin reallaşması Ermənistanı onun orbitindən uzaqlaşdıracaq. Ermənistanın əldən çıxması isə Fransanın Cənubi Qafqaz da daxil olmaqla mühüm bir coğrafiyadan tam təcrid olunması deməkdir. Bu səbəbdən də heç bir ehtiyac olmadan bu 200 nəfərə yaxın missiyanı 2027-ci ilə kimi Ermənistanda saxlamaqda israr edirlər. Dövlət başçısı çıxışında bildirib ki, bu gün hələ də Azərbaycan-Ermənistan sərhədində Avropanın dırnaqarası müşahidəçiləri guya ki, keşik çəkirlər: "Mən o vaxt da demişəm, biz bir dənə güllə atsaq, onların dabanları partlayacaq, heç izi-tozu da qalmayacaq orada. Amma özlərini belə göstərirlər, guya ki, onlar Ermənistanı bizdən qoruyurlar. Bizdən Ermənistanı qorumaq lazım deyil. Biz istədiyimizə nail olmuşuq. Özünü Ermənistandakı bu tədbirdə yenə də yalançı qəhrəman kimi göstərmək ki, guya onlar Azərbaycanın qabağını alıblar, yoxsa bu aqressiv, təcavüzkar Azərbaycan Ermənistanı məhv edəcəkdi, hamısı cəfəngiyatdır. Bizim belə niyyətimiz olmayıb, yoxdur və olmayacaq, əgər bizə qarşı yenidən təxribat törədilməsə".

**Ermənistan xalqının başı dərddə olacaq...**

Fransa Ermənistan hakimiyyətini şantaj etməkdən də çəkinmir - bir neçə gündən sonra Ermənistanda keçiriləcək parlament seçkilərinə göndərilən yeni "missiya" da bunun sübutudur. Makron yaxşı bilir ki, Ermənistanda revanşizm əhvalında yaşayanlar, eləcə də bir sıra xarici ölkələr tərəfindən stimullaşdırılaraq revanşizmi siyasi şüara çevirən təşkilatlar mövcuddur. Göndərilən missiya isə sülhlə bağlı açıq mesaj verən hazırki iqtidarın yanaşmasına təsir etmək, bölgədəki sabitliyə mane olmaqdır. Amma Ermənistan dövləti, erməni xalqı bilməlidir ki, sülhün inkarı onlar üçün daha ağır nəticələr deməkdir. Hətta Fransa da daxil olmaqla revanşizmi dəstəkləyən qrupların arzularının yerinə yetirilməsi bu dövlətin tam çöküşünə yol açacaq. Prezident İlham Əliyev çıxışında deyib ki, "biz bilirik ki, Ermənistanın siyasi müstəvisində Azərbaycan xalqına, dövlətinə nifrətlə yaşayan kifayət qədər dairələr var və onlar hakimiyyətə gəlsə, bax, o zaman Ermənistan xalqının başı dərddə olacaq".

**P.İSMAYILOV**

# SOCAR-bp əməkdaşlığının perspektivləri müzakirə olunub



## Prezident İlham Əliyev bp şirkətinin baş icraçı direktorunu qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 12-də bp şirkətinin baş icraçı direktoru Meq O'Nili qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Meq O'Nili bp şirkətinin baş icraçı direktoru vəzifəsinə təyin olunması münasibətilə təbrik etdi, onun rəhbərliyi ilə SOCAR-bp uğurlu əməkdaşlığının gələcəkdə də davam edəcəyinə əminliyini bildirdi.

Prezident İlham Əliyev ölkəmizlə bp arasında 30 ildən artıqdır ki, nadir tərəfdaşlıq tarixçəsinin olduğunu dedi. Dövlətimizin başçısı vurğuladı ki, bu müddətdə həyata keçirilmiş bütün layihələrdən əldə edilən gəlir əsasən Azərbaycanın sosial-iqtisadi inkişafı üçün istifadə olunub.

Ölkəmizlə bp arasında icra olunan layihələrin sayının artmaqda olduğunu deyən Azərbaycan Prezidenti bunun əməkdaşlığın hər iki tərəf üçün faydalı olduğunu nümayiş etdirdiyini vurğuladı və tərəfdaşlığımızın strateji xarakter daşıdığını diqqətə çatdırdı.

Təbriklərə görə təşəkkürünü bildirən Meq O'Nil Bakıda olmaqdan şərəf hissi keçirdiyini dedi.

bp şirkətinin baş icraçı direktoru Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə neft və qazdan əldə edilən gəlirin ölkənin inkişafına sərf olunması ilə bağlı uzaqgörən liderliklərini xüsusi vurğuladı.

Meq O'Nil bu xüsusda Bakının inkişafına, o cümlədən yollara və infrastruktura yatırılan sərmayəyə toxundu.

Dövlətimizin başçısı qeyd etdi ki, bəzi hallarda neft və qazdan əldə edilən gəlir sosial qeyri-bərabərliyə səbəb olur. Azərbaycanın timsalında isə bu, ölkənin tərəqqisinə kömək edib. Müstəqilliyimizi bərpa etdikdən bir müddət sonra "Əsrin müqaviləsi"nin imzalandığını xatırladan Prezident İlham Əliyev Birinci Qarabağ müharibəsindən sonra ölkəmizdə vəziyyətin çətin olduğunu dedi, ərazilərimizin itkisinə məruz qaldığımızı və humanitar fəlakətlə üzləşdiyimizi vurğuladı. Azərbaycan Prezidenti bildirdi ki, o zaman büdcəmiz sıfır səviyyəsində idi və bu vəziyyətdən çıxmağın yeganə yolu əsas beynəlxalq şirkətləri ölkəmizə cəlb etmək, onları investisiya yatırmağa inandırmaq idi. Prezident İlham Əliyev bu xüsusda bp-yə göstərdiyi etimada görə minnətdarlığını bildirdi.

Söhbət zamanı bp-nin ölkəmizdə icra etdiyi enerji, o cümlədən bərpaolunan enerji layihələri qeyd olundu, işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirdiyi layihənin önəminə toxunuldu.

Görüşdə ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu qeyd edildi, SOCAR-bp əməkdaşlığının perspektivləri müzakirə olundu.

# Qarabağ və Şərqi Zəngəzura həyat qayıdır...










İşğaldan azad edilmiş ərazilərin dirçəldilməsi postmüharibə dövrünün ən əlamətdar hadisələrindəndir. Müharibəni şanlı Zəfərlə başa vuran, öz gücünə ərazi bütövlüyünü və suverenliyini tam təmin edən qalib Azərbaycan quruculuq sahəsində də dünyaya nümunə göstərir.

Artıq Qarabağ və Şərqi Zəngəzura həyat qayıdır. Burada infrastrukturun, şəhər və kəndlərin müasir yanaşmalar əsasında bərpası ilə paralel şəkildə, ərazilərin məskunlaşdırılması da uğurla davam etdirilir. Elə bu günlərdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsində işğaldan azad edilmiş ərazilərə növbəti dəfə səfərə gələrək burada yeni təməlqoyma, açılış tədbirlərinə qatılıblar, həmçinin doğma yurd yerlərinə qayıdan soydaşlarımızla görüşərək onların sevincinə şərik çıxıblar. "Biz - bu torpaqların sahibləri nəinki bu torpaqları düşmən əlindən döyüşərək aldıq, şəhidlər verərək aldıq, eyni zamanda, bu torpaqları canlandırdıq", - deyə dövlətimizin başçısı Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşdəki çıxışında bildirib.

**Şükürbəyli doğma sakinlərini qarşılayıb**

Bu günlərdə Cəbrayıl rayonunun Şükürbəyli kəndi doğma sakinlərini qarşılayıb. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şükürbəyli kəndinin açılışında iştirak ediblər. Dövlətimizin başçısı əvvəlcə kənddə inşa edilmiş 360 şagird yerlik məktəb binasının açılışını edib.

Şükürbəyli 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Kənd 2020-ci ildə Vətən müharibəsi zamanı rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. Prezident İlham Əliyev 2023-cü ildə kəndin təməlini qoyub.

Diqqətə çatdırılıb ki, işğaldan azad edilmiş digər ərazilərimizdə istifadəyə verilən yeni məktəblərdə olduğu kimi, bu təhsil müəssisəsində də müəllim və şagirdlər üçün hərtərəfli şərait yaradılıb.

Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şükürbəyli kəndində inşa edilmiş fərdi evlərdə yaradılmış şəraitlə tanış olublar və kəndə köçən sakinlərlə görüşüblər.

Bildirildiyi kimi, Şükürbəyliyə rayonun Şıxalıağalı, Dəjəl kəndlərinin və Mahmudlu qəsəbəsinin sakinləri də daxil olmaqla, ümumilikdə 2522 nəfərin (615 ailə) köçürülməsi nəzərdə tutulur. İlkin mərhələdə 635 fərdi ev istifadəyə verilib. Onlardan 615-i sakinlər, 20-si isə xidməti istifadə üçündür.

**Cəbrayılda Mərkəzi Xəstəxana binasının tikintisi ilə tanışlıq**

İşğaldan azad olunmuş ərazilərə növbəti səfər çərçivəsində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 150 çarpayılıq Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının binasının tikintisi ilə tanış olublar.

Qeyd edək ki, bu xəstəxana binasının təməli Prezident İlham Əliyev tərəfindən 2021-ci ildə qoyulub. Ərazisi 5 hektara yaxındır. Xəstəxanada terapiya, cərrahiyyə, pediatriya, doğum, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Bundan başqa, poliklinika, şüa-diaqnostika, funksional-diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, klinik diaqnostika laboratoriyası yaradılacaq. Hazırda əsas bina ilə yanaşı, yoluxucu xəstəliklər, hemodializ və poliklinika korpusları, təcili tibbi yardım stansiyası, həmçinin Cəbrayıl Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin və digər binaların inşası davam etdirilir.

**Soltanlı kəndində "Şəfəq" yarımstansiyası istifadəyə verilib**

İşğaldan azad olunmuş ərazilərin dirçəldilməsi çərçivəsində müasir infrastruktur obyektlərinin yaradılması da diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyev Cəbrayıl rayonunun Soltanlı kəndində "AzərEnerji" ASC-nin 330 kV-luq "Şəfəq" yarımstansiyasının açılışında iştirak edib.

Açılış mərasimində diqqətə çatdırılıb ki, işğaldan azad edilmiş ərazilərdə ilk sənaye miqyaslı Günəş elektrik stansiyası və ən böyük, birbaşa xarici investisiya layihəsi olaraq bp şirkəti tərəfindən Cəbrayılda tikilən 240 meqavatlıq "Şəfəq" Günəş Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası üçün Azərbaycan dövləti tərəfindən irihəcmli işlər həyata keçirilib.

Bu çərçivədə "AzərEnerji" tərəfindən Cəbrayılda 330 kV-luq rəqəmsal yarımstansiya tikilib və bu yarımstansiyanı ölkənin enerji şəbəkəsinə qoşmaq üçün "Cəbrayıl" Enerji Qovşağına 7,5 kilometr uzunluğunda 330 kV-luq ikidövrəli yüksəkgərginlikli ötürmə xətti çəkilib. Bu infrastruktur yaşıl enerjinin ölkə üzrə hərəkətini təmin edən strateji bir körpüdür.

Bu irihəcmli yaşıl enerjinin ötürülməsi layihəsi paralel şəkildə davam etdirilib. Belə ki, Səngəçal Terminalının yaşıl enerji ilə təchizatı məqsədilə yeni 220 kilovoltluq yarımstansiya tikilib və işlər artıq yekunlaşıb. Bu yenilik nəticəsində terminalda qazla işləyən elektrik stansiyası dayandırılacaq və Cəbrayılda Günəşdən əldə olunan enerji ümumi enerjisistemə, oradan isə balanslaşdırılmış şəkildə həm də Səngəçal terminalına yönləndiriləcək.

**Zəngilan şəhərində ilk Yaşayış kompleksinin açılışı**

Səfər çərçivəsində Prezident İlham Əliyev Zəngilan şəhərində inşa olunmuş 104 mənzilli ilk yaşayış kompleksinin açılışında iştirak edib. Dövlətimizin başçısı ilk yaşayış kompleksinə köçən ailələrlə görüşüb, onlara mənzillərin açarlarını təqdim edib.

Qeyd edək ki, 2022-ci ildə bu kompleksin təməlqoyma mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Dövlətimizin başçısı 2024-cü və 2025-ci illərdə yaşayış kompleksinin tikintisi ilə tanış olub.

Kompleksin ümumi ərazisi 2 hektardan artıqdır. Burada 12 bina inşa olunub. O cümlədən 4 ədəd (60 mənzilli) üçmərtəbəli, 8 ədəd (44 mənzilli) ikimərtəbəli "townhouse" tipli evlər tikilib.

**"Zangilan City Park Hotel"in təməli qoyulub**

Dövlətimizin başçısı işğaldan azad olunmuş ərazilərə növbəti səfəri çərçivəsində həmçinin Zəngilan şəhərində "Zangilan City Park Hotel"in təməlini qoyub. Tədbirdə "PMD Group" MMC-nin layihə rəhbəri Kamil Əliyev dövlətimizin başçısına görüləcək işlər barədə məlumat verib.

Bildirilib ki, hotelin ərazisi 1,5 hektar olacaq. Burada eyni zamanda 241 nəfər qala biləcək. Hoteldə ümumi 116 nömrə olacaq. Burada restoran, çoxfunksiyalı iclas otaqları, idman zalı və açıq terras yaradılacaq. Yeni hoteldə ümumilikdə 120 nəfər işlə təmin ediləcək.

Dövlətimizin başçısı yeni hotelin təməlini qoyub.

***Mübariz ABDULLAYEV***

# Dünya mediası İlham Əliyevin Zəngilandakı çıxışından nələr yazır?









Dünyanın bir sıra aparıcı media qurumları Azərbaycan Prezidenti İlham Əliyevin Zəngilan şəhərində sakinlərlə görüşündəki çıxışından materiallar yayıblar. Materiallarda dövlətimizin başçısının Ermənistan-Azərbaycan sərhədindəki vəziyyət, Avropa İttifaqının missiyası və Qərb ölkələrinin regiona münasibəti ilə bağlı səsləndirdiyi əsas bəyanatlar, eləcə də işğaldan azad edilən ərazilərin bərpası, Zəngilanda aqrar və infrastruktur layihələrinin inkişafı ilə bağlı fikirlərinə yönəldilib.

Türkiyə mediası Prezident İlham Əliyevin Zəngilan səfərini diqqətdə saxlayıb. "Haber Global" kanalı Prezident İlham Əliyev şəhərin ilk yaşayış kompleksinə köçən ailələrlə görüşü barədə material yayıb. Nəşrdə dövlətimizin başçısının Ümummilli Lider Heydər Əliyevin işğal altında olan torpaqların azad edilməsi ilə bağlı vəsiyyətinin yerinə yetirildiyi barədə sözləri təqdim olunur.

"Bursa Hakimiyet" də dövlətimizin başçısının Zəngilandakı çıxışına diqqət ayırıb. Materialda bildirilir ki, İlham Əliyev Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin qorunmasında, vətəndaş qarşıdurmasının dayandırılmasında və sabitliyin təmin olunmasında rolunu xatırladıb. Bu isə sonradan ölkənin ərazi bütövlüyünün bərpasında mühüm rol oynayıb.

Zəngilanın bərpası və inkişafı mövzusunu "Anadolu" agentliyi davam etdirib. Dövlətimizin başçısının sözlərinə görə, Zəngilanda yaradılan "Dost Agropark" işğaldan azad edilən ərazilərdə ilk kənd təsərrüfatı müəssisəsidir. Regiondakı nəqliyyat layihələrinə toxunan Prezident İlham Əliyev bildirib ki, yaxın gələcəkdə - təxminən bir il və ya il yarımdan sonra Bakıdan Zəngilana dəmir yolu ilə getmək mümkün olacaq.

"Son Dakika" da Zəngilanda kənd təsərrüfatı və bərpa işləri barədə material yayıb. Nəşrdə qeyd olunur ki, Prezident İlham Əliyev şəhərin ilk yaşayış kompleksinə köçən ailələrə açarlar təqdim edib, həmçinin mənzil layihələrinin icrası və aqroparkın inkişafı barədə danışıb.

Rusiyanın RBK, "Vedomosti", "Rossiyskaya qazeta", "İzvestiya", RT, REGNUM, "Komsomolskaya pravda", "Moskovski komsomolets", "Vzqlyad", RTVI, Life, URA.RU, Lenta.ru, "Arqumentı i faktı" və digər nəşrləri də dövlətimizin başçısının İrəvanda keçirilən sammit zamanı Avropa liderlərinin səsləndirdiyi bəyanatları "boş söz" adlandırması ilə bağlı fikirlərinə geniş yer veriblər. Media orqanları, həmçinin Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan sərhədində yerləşdirilmiş Avropa müşahidəçilərini tənqid etməsinə diqqət yetiriblər.

Rusiya mediası Prezident İlham Əliyevin Aİ missiyasının real effektivliyini şübhə altına aldığını vurğulayaraq, Avropa müşahidəçilərinin ilk ciddi təhlükə zamanı ərazini tərk edəcəkləri ilə bağlı fikirlərini ön plana çıxarıb. Bir sıra nəşrlər dövlətimizin başçısının regionda sülhün müəllifi və təminatçısının məhz Azərbaycanın olması barədə bəyanatını xüsusi qeyd ediblər. Nəşrlər, həmçinin Prezident İlham Əliyevin regional təhlükəsizlik və postmüharibə nizamlanması məsələləri ilə bağlı mövqeyini geniş işıqlandıraraq, Bakının Cənubi Qafqazda sabitliyi müstəqil şəkildə təmin etmək imkanlarına malik olduğunu vurğulayıblar. Materiallarda dövlət başçısının bəyanatlarının Rusiya media məkanında geniş rezonans doğurduğu və günün ən çox müzakirə olunan mövzularından birinə çevrildiyi qeyd olunur.

Gürcüstanın aparıcı informasiya portalları, televiziyaları da Azərbaycan Prezidenti İlham Əliyevin Zəngilan şəhərində sakinlərlə görüşündəki çıxışından materiallar yayıblar. Interpressnews.ge, bpn.ge, kvira.ge, exclusivenews.ge, mix.metronome.ge, palitranews.ge, palitranews.ge, timer.ge, newshub.ge portalları, 1tv.ge televiziya kanalı və televiziyası, eləcə də rustavi2.ge televiziyası Prezident İlham Əliyevin Azərbaycanın ədalətli mövqeyi və Ermənistan ilə bağlı fikirlərinə geniş yer ayırıb. Gürcü mətbuatı dövlətimizin başçısının Ermənistan-Azərbaycan sərhədində yerləşdirilmiş Avropa müşahidəçiləri ilə bağlı tənqidi fikirlərini də oxuculara çatdırıb.

Belarusun "Sputnik Belarus" nəşri Prezident İlham Əliyevin Ermənistan-Azərbaycan sərhədində Avropa İttifaqının mülki müşahidə missiyası ilə bağlı sözlərinə diqqət çəkib. Nəşrdə qeyd olunur ki, dövlət başçısının sözlərinə görə, Bakının "Ermənistanı məhv etmək və ya onun müstəqilliyini əlindən almaq" niyyəti olmayıb. Bununla yanaşı, Prezident İlham Əliyev vurğulayıb ki, avropalı müşahidəçilər elə davranırlar ki, sanki Ermənistanı Azərbaycandan qoruyurlar, halbuki buna heç bir ehtiyac yoxdur.

Qazaxıstanın Lada.kz nəşri də bu mövzunu davam etdirərək, Azərbaycan Prezidentinin Avropa İttifaqı müşahidə missiyasını tənqid etməsinə dair material yayıb. Nəşrdə qeyd olunur ki, dövlət başçısının sözlərinə görə, Avropa İttifaqının nümayəndələri sadəcə təhlükəsizlik görüntüsü yaradırlar, halbuki Bakı tərəfindən real təhlükə yoxdur.

Almaniyanın NEX24 nəşri də eyni mövzunu işıqlandıraraq yazır ki, İlham Əliyev Avropa İttifaqının Ermənistandakı müşahidəçilərini tənqid edib. Materialda dövlətimizin başçısının Ermənistanı Azərbaycandan qorumağa ehtiyac olmadığı barədə fikirləri də yer alıb.

Farsdilli Khabar Nab və Khabarpu portalları Ermənistandakı siyasi qüvvələr mövzusuna toxunublar. Materiallarda Prezident İlham Əliyevin Ermənistan cəmiyyətində Azərbaycana nifrət bəsləyən qüvvələrə münasibətdə ayıq-sayıq olmağa çağırışı yer alıb. Khabar Nab, həmçinin dövlət başçısının Azərbaycan torpağının hər qarışının Azərbaycan xalqına məxsus olması barədə sözlərini təqdim edib.

"Shafaqna" beynəlxalq informasiya agentliyinin farsdilli versiyası da Azərbaycan Prezidentinin Avropa İttifaqının Ermənistandakı müşahidə missiyası ilə bağlı bəyanatlarına diqqət ayırıb. Materialda bildirilir ki, dövlət başçısı Ermənistanla sərhəd boyunca fəaliyyət göstərən Aİ müşahidəçilərini tənqid edərək, onların elə davrandıqlarını bildirib ki, sanki Ermənistanı Azərbaycandan qoruyurlar.

***Nardar BAYRAMLI***

# YAP nümayəndə heyəti Çində səfərdədir








Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi, YAP İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Pərvin Kərimzadə, partiyanın Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, Mərkəzi Aparatın Beynəlxalq əlaqələr və humanitar məsələlər şöbəsinin müdiri Hülya Məmmədli, İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərovdan ibarət nümayəndə heyəti Çin Kommunist Partiyasının (ÇKP) dəvəti ilə Çin Xalq Respublikasına səfər edib.

Səfər çərçivəsində mayın 12-də nümayəndə heyətinin Ümumçin Xalq Nümayəndələri Yığıncağı Daimi Komitəsi sədrinin müavini Çjen Tszyanban ilə görüşü keçirilib.

Görüşdə Azərbaycan-Çin münasibətlərinin tarixi ənənələrə, möhkəm dostluğa, qarşılıqlı etimada və hərtərəfli strateji tərəfdaşlığa əsaslandığı vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin dövlətlərarası münasibətlərin inkişafına xüsusi önəm verdikləri bildirilib.



Prezident İlham Əliyevin 2025-ci ilin aprel ayında Çinə rəsmi dövlət səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"dan irəli gələrək fəal siyasi dialoq şəraitində müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi-ticari, nəqliyyat-logistika, turizm, yaşıl enerji, rəqəmsal texnologiyalar və digər sahələrdə mövcud potensialdan səmərəli istifadənin diqqət mərkəzində saxlanıldığı və çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi üçün ardıcıl fəaliyyətin həyata keçirildiyi qeyd olunub.

Qlobal kataklizmlərlə müşayiət olunan geosiyasi transformasiya şəraitində Azərbaycan ilə Çinin beynəlxalq hüquq normalarına və milli maraqlara hörmət prinsiplərinə əsaslanaraq bəşəriyyətin sağlam gələcəyi naminə sülhün, təhlükəsizliyin və qarşılıqlı faydalı əməkdaşlığın təşviqi istiqamətində konstruktiv siyasət yürütməsinin önəmi vurğulanıb.

Tahir Budaqov Azərbaycanın Vahid Çin prinsipini birmənalı şəkildə dəstəklədiyini bildirib.

Çjen Tszyanban isə Çin Xalq Respublikasının ölkəmizin haqlı və ədalətli mövqeyini müdafiə etdiyini, o cümlədən ərazi bütövlüyü və suverenliyinə qətiyyətli dəstək göstərdiyini vurğulayıb.

Hər iki ölkənin mühüm qlobal təşəbbüslərlə çıxış etdiyi qeyd olunaraq "Bir kəmər, bir yol" layihəsinin və Zəngəzur dəhlizinin geostrateji əhəmiyyəti diqqətə çatdırılıb.

Mayın 17-də paytaxt Bakıda öz işinə başlayacaq və Çin nümayəndə heyətinin də təmsil olunacağı BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının beynəlxalq müstəvidə şəhərsalma prosesində önəmli rol oynayacağına inam ifadə olunub.

Azərbaycanın işğaldan azad edilmiş ərazilərində müasir şəhərsalma konsepsiyaları əsasında genişmiqyaslı bərpa-quruculuq işlərinin aparıldığı və Çin şirkətlərinin də innovativ texnologiyalardan istifadə etməklə bu prosesə mühüm töhfələr verə biləcəyi qeyd olunub.

Azərbaycan-Çin əlaqələrinin vacib tərkib hissəsi olaraq YAP ilə ÇKP arasında işbirliyinin, həmçinin qanunverici orqanlarda dostluq qruplarının səmərəli fəaliyyətinin əhəmiyyəti vurğulanıb.

2024-cü il noyabrın 13-də hakim partiyalar arasında imzalanmış Əməkdaşlıq Memorandumundan irəli gələrək müştərək hədəflərin gerçəkləşdirilməsi üçün məqsədyönlü tədbirlərin uğurla davam etdirildiyi bildirilib və bu xüsusda qarşılıqlı maraq doğuran digər məsələlərlə əlaqədar fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin Pekin Partiya Məktəbinə, Mərkəzi Partiya Məktəbinin Tarix muzeyinə və "Xiaomi" şirkətinin avtomobil superzavoduna ekskursiyası da təşkil edilib.

# MEDİA-da dəyirmi masa...

*Nardar BAYRAMLI*

Mayın 12-də Medianın İnkişafı Agentliyi tərəfindən "Prezident İlham Əliyevin sülh strategiyası sabitliyin qarantıdır" mövzusunda dəyirmi masa təşkil edilib. Dəyirmi masada çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli regional və qlobal çağırışların geniş vüsət aldığı müasir dövrdə davamlı sülhün təmin olunmasının, təhlükəsizliyin möhkəmləndirilməsinin və dayanıqlı inkişaf mühitinin formalaşdırılmasının dövlətlərin əsas prioritetlərindən olduğunu bildirib. O qeyd edib ki, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən ardıcıl siyasət regionda əməkdaşlıq münasibətlərinin genişlənməsi, konstruktiv dialoqun inkişafı və uzunmüddətli etimad mühitinin formalaşması baxımından mühüm əhəmiyyət daşıyır. Azərbaycanın sülh siyasətinin arxasında Prezident İlham Əliyevin qətiyyəti, dövlətin ardıcıl siyasi xətti və praktiki fəaliyyət dayanır. Bu baxımdan, Azərbaycanın yaratdığı model beynəlxalq münasibətlər sistemində xüsusi diqqət çəkir və yeni siyasi yanaşma nümunəsi kimi qiymətləndirilir. N.Məmmədli regionda sülh prosesi ilə bağlı vəziyyətin dəyərləndirilməsi baxımından medianın üzərinə düşən vəzifələrdən də bəhs edib.




Azərbaycanın sabiq xarici işlər naziri Tofiq Zülfüqarov çıxışında beynəlxalq vasitəçilik təcrübələri və müasir geosiyasi reallıqlar kontekstində regional təhlükəsizlik məsələlərinə toxunub. Diplomat vurğulayıb ki, 2020-ci ildə Azərbaycan öz gücü və siyasi iradəsi hesabına beynəlxalq hüququ təmin etdi: "2020-ci ildə Azərbaycan dövləti Prezident İlham Əliyevin qətiyyətli siyasəti nəticəsində beynəlxalq hüquqa uyğun şəkildə hərəkət etdi. Azərbaycan Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin 51-ci maddəsinə əsaslanaraq özünümüdafiə hüququndan istifadə etdi və işğalçıya layiqli cavab verdi. Bununla da işğala və onun qalıqlarına son qoyuldu".

O bildirib ki, hazırkı mərhələdə regionda yeni əməkdaşlıq imkanlarının yaranması, kommunikasiya əlaqələrinin genişlənməsi və uzunmüddətli inkişaf üçün əlverişli siyasi mühitin formalaşması xüsusi aktuallıq kəsb edir.

Milli Məclisin deputatı Fariz İsmayılzadə regionda müşahidə olunan geosiyasi gerginliklər fonunda Azərbaycanın irəli sürdüyü sülh təşəbbüslərinin əhəmiyyətindən danışıb. O qeyd edib ki, dialoq, qarşılıqlı hörmət və beynəlxalq hüququn prinsiplərinə əsaslanan yanaşmalar regionda davamlı sabitliyin təmin olunması baxımından xüsusi önəm daşıyır.

Millət vəkili Rizvan Nəbiyev çıxışında qlobal təhlükəsizlik mühitində baş verən dəyişikliklər fonunda Azərbaycanın beynəlxalq əməkdaşlıq platformalarında fəal iştirakının və çoxtərəfli münasibətlərin inkişafına verdiyi töhfələrin əhəmiyyətini vurğulayıb. O bildirib ki, Azərbaycanın həyata keçirdiyi balanslı və praqmatik siyasət müxtəlif tərəfdaşlar arasında etibarlı münasibətlərin qurulmasına, regional kommunikasiyaların inkişafına və qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsinə xidmət edir.

Tarixçi-alim Rizvan Hüseynov çıxışında qlobal təhlükəsizlik mühitinə təsir göstərən müasir çağırışlardan bəhs edib. Onun sözlərinə görə, beynəlxalq münasibətlər sistemində humanitar yanaşmaların, mədəni dialoqun və qarşılıqlı anlaşmanın gücləndirilməsi dövlətlər arasında daha sağlam münasibətlərin qurulmasına və ortaq maraqlar əsasında əməkdaşlığın inkişafına imkan yaradır.

Dəyirmi masa çərçivəsində iştirakçılar tərəfindən Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin regionda sabitliyin, təhlükəsizliyin və əməkdaşlığın təşviqinə verdiyi töhfələr ətrafında fikir mübadiləsi aparılıb. Tədbirdə, həmçinin sülh gündəliyinin təşviqi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi və cəmiyyətin düzgün məlumatlandırılması istiqamətində medianın rolunun vacibliyi qeyd olunub. Eləcə də, jurnalistlərin sualları cavablandırılıb.

# Milli Məclisin iclasında...
# İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatı dinlənilib



Mayın 12-də Milli Məclisin növbəti iclası keçirilib. İclasın gündəliyinə 8 məsələ daxil edilib. Əvvəlcə çıxış edən spiker Sahibə Qafarova mayın 10-da Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünün respublikamızda böyük təntənə ilə keçirildiyini söyləyib. S.Qafarova bildirib ki, tariximizin ən mürəkkəb və taleyüklü dövründə məhz Ulu Öndər Heydər Əliyevin siyasi müdrikliyi, qətiyyəti və fədakarlığı sayəsində dövlət müstəqilliyimizi qoruyub saxlamaq mümkün oldu. Onun sözlərinə görə, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müasir milli dövlətçilik konsepsiyası formalaşdırılıb və həyata keçirilib: "Müstəqil dövlətimizin Konstitusiyası hazırlanıb qəbul olunub, xalqımızın maraqlarına cavab verən daxili və xarici siyasətin strateji istiqamətləri müəyyən edilib. Ölkəmizin uzunmüddətli və dayanıqlı inkişaf modeli yaradılıb. Azərbaycan beynəlxalq birliyin nüfuzlu üzvünə çevrilib".

Spiker qeyd edib ki, Ümummilli Liderin başlatdığı möhtəşəm işlər Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqincə davam etdirilir. Son 23 il Azərbaycanın dövlətçilik tarixinə dinamik və hərtərəfli inkişaf dövrü kimi daxil olub. Ölkə həyatının bütün sahələrində böyük və qürurverici uğurlar əldə edilib. Azərbaycanın zəngin iqtisadi, siyasi və hərbi potensialı yaradılıb. Bu isə xalqımızın və dövlətimizin müqəddəratı ilə bağlı olan ən mühüm problemi həll etməyə imkan verib. "Müzəffər Ali Baş Komandanın sərkərdəlik məharəti və Azərbaycan Silahlı Qüvvələrinin döyüş əzmi və rəşadəti 44 günlük Vətən müharibəsində və antiterror əməliyyatında tarixi qələbələri təmin etdi. Azərbaycan torpaqlarının 30 illik işğalına son qoyuldu, dövlətimizin ərazi bütövlüyü və suverenliyi, tarixi ədalət bərpa olundu. Ümummilli Lider Heydər Əliyev tərəfindən başladılmış tarixi missiya şərəflə başa çatdırıldı",- deyə S.Qafarova vurğulayıb.

Spiker, həmçinin bugünlərdə Monteneqroya etdiyi işgüzar səfəri barədə də məlumat verib.

İclasda ilk olaraq İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun 2025-ci ildə Azərbaycanda insan alverinə qarşı mübarizəyə dair məlumatı müzakirəyə çıxarılıb. Məlumatı daxili işlər nazirinin birinci müavini Seyfulla Əzimov təqdim edib. İllik məlumatda insan alverinə qarşı mübarizə fəaliyyəti ilə bağlı qanunvericilik, profilaktika, maarifləndirmə, təlim və treninqlər, beynəlxalq əməkdaşlıq, məcburi əməyin qarşısının alınması sahəsində tədbirlər, cinayət təqibi və qurbanlarla iş, qarşıda duran vəzifələr kimi istiqamətlər öz əksini tapıb. Məlumata əsasən, 2025-ci ildə xarici ölkələrdə 46 Azərbaycan vətəndaşı insan alverinin qurbanı olub. Onlardan 33-ü Türkiyə, 10-u Birləşmiş Ərəb Əmirlikləri, 3-ü isə Pakistanda cinsi istismara məruz qalıb.

Hesabatda qeyd edilib ki, qurbanlardan 4-ü 18-25 yaş arası, 28-i 25-35 yaş arası, 14-ü 35 yaşdan yuxarı yaş həddində olub. İllik məlumata əsasən, ötən il ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan 936 uşaq və buna şərait yaradan 511 valideyn aşkarlanıb.

Sənəddə vurğulanıb ki, hesabat dövründə məhkəmələr tərəfindən 14 insan alverçisi (2-si keçmiş illərdən olmaqla) azadlıqdan məhrumetmə cəzasına məhkum edilib. Məhkumlardan 4-ü kişi, 10-u qadındır. Hazırda insan alveri cinayəti törətməkdə təqsirləndirilən 10 şəxsin İnterpol kanalları ilə beynəlxalq axtarışı davam etdirilir.

Milli Koordinatorun məlumatına görə, 2025-ci ildə şəxsiyyət vəsiqəsi olmayan 9 uşağa doğum haqqında şəhadətnamə verilib. Həmin uşaqlara məhkəmə qərarları əsasında doğum haqqında şəhadətnamələr verilərək müvafiq məlumatlar Azərbaycan Əhalisinin Dövlət Reyestrinə daxil edilib. Bundan başqa, ötən il bir nəfər Azərbaycan vətəndaşının Monteneqroda tikinti sektorunda istismar edildiyi aşkarlanıb. İxtisaslaşmış xüsusi polis qurumu tərəfindən həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə həmin məcburi əmək faktı müəyyən edilərək cinayət işi başlanılıb.

Müzakirələrdən sonra illik məlumat qəbul olunub.

Sonra Quba rayonunun inzibati ərazi dairəsinin tərkibinə daxil olan bəzi yaşayış məntəqələrinin adları dəyişdirilib. "Quba rayonunun bəzi ərazi vahidlərinin adlarının dəyişdirilməsi haqqında" qanun layihəsinə əsasən, rayonun Vladimirovka, Alekseyevka və Timiryazev yaşayış məntəqələrinin adlarının dəyişdirilərək müvafiq olaraq, "Elbir", "Çinarlı" və "Bəhrəli" adlandırılması təklif olunub. Qanun layihəsi səsverməyə çıxarılaraq bir oxunuşda qəbul edilib.

Deputatlar iclasın gündəliyində olan digər qanun layihələrini də qəbul ediblər.

*Nardar BAYRAMLI*

# Böyük Zəfərə aparan strateji yolun başlanğıcı...
## Bişkek protokolunun imzalanmasından 32 il ötür

SSRİ-nin dağılması ilə müstəqillik əldə edən Azərbaycan böyük bir sınaqla üz-üzə qalmalı oldu. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımız işğal olunur, cəbhədə ardıcıl itkilər yaşanırdı. Eyni zamanda, ölkə daxilində hakimiyyətsizlik, siyasi qarşıdurmalar və idarəçilik böhranı hökm sürürdü. AXC-Müsavat hakimiyyətinin səriştəsiz siyasəti ölkəni vətəndaş qarşıdurması və parçalanma təhlükəsi ilə qarşılaşdırmış, dövlət institutları faktiki olaraq iflic vəziyyətinə düşmüşdü. Orduda vahid komandanlığın olmaması, nizamsız silahlı dəstələrin fəaliyyəti və diplomatik təcrid Azərbaycanın vəziyyətini daha da ağırlaşdırırdı.

Məhz belə taleyüklü bir mərhələdə xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdan Ümummilli lider Heydər Əliyev öz uzaqgörənliyi və qətiyyəti ilə dövlətin xilası naminə mühüm addımlar atdı. Ulu Öndər yaxşı anlayırdı ki, ilk növbədə Azərbaycanı xaosdan, parçalanmadan və məhv olmaq təhlükəsindən qorumaq lazımdır. Bu baxımdan cəbhədə atəşkəsə nail olunması sadəcə müharibənin dayandırılması deyil, dövlət quruculuğu, nizami ordunun formalaşdırılması və beynəlxalq mövqelərin gücləndirilməsi üçün həyati zərurət idi. 1994-cü ilin mayında imzalanan Bişkek Protokolu Azərbaycan dövlətçiliyinin qorunması və gələcək qələbənin təməlini qoyan mühüm siyasi addımlardan biri kimi tarixə düşdü. Bişkek Protokolu ilə əldə edilən atəşkəs Azərbaycan xalqına nəfəs dərmək, iqtisadi və siyasi sabitliyi bərpa etmək imkanı verdi.





### Protokolda nə deyilirdi?

Protokolun imzalanması əslində Azərbaycana münaqişənin həlli istiqamətində mane olan bir sıra problemləri həll etməyə imkan yaradırdı. Yeni yaranan müstəqil bir dövlət olaraq xarici siyasət prioritetlərinin müəyyənləşdirilməsi, dünya ictimaiyyəti arasında münaqişə ilə bağlı təbliğat aparılması, o cümlədən iqtisadiyyatın yenidən qurulması, dövlətlərarası münasibətlərin formalaşdırılması üçün Azərbaycanın vaxta, zamana ehtiyacı vardı. Atəşkəs məhz dövlət quruculuğu prosesində Azərbaycanın düz yolda olduğunu sübuta yetirən ən böyük faktor oldu.

Nəzərə alsaq ki, hələ protokol imzalanmaşdan öncə münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdi və bu qətnamələrin hamısı da birmənalı olaraq münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tələb edirdi, bu ölkə diplomatiyasının ilk istinad nöqtəsinə çevrildi.

Bişkek protokolunda qeyd olunurdu ki, münaqişənin davamı tək Azərbaycan və ya Ermənistan üçün deyil, beynəlxalq təhlükəsizliyə təhlükə yaradır və müharibə regionun digər ölkələrinin də maraqlarına uyğun gəlmir. Bundan başqa bir daha 1994-cü il 15 aprel MDB Dövlət Başçıları Şurasının ərazinin dəstəkləndiyi (bu bəyannamədə MDB-yə üzv dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərin toxunulmazlığına hörmət ifadə olunub) və hərbi münaqişənin tənzimlənməsi və tezliklə həll olunmasına yardım göstərilməsi razılaşdırıldığı sənəddə öz əksini tapıb. Razılaşmaya əsasən, məsələnin həllinə ilk növbədə BMT Təhlükəsizlik Şurasının problemlə bağlı qəbul etdiyi 822, 853, 874, 884 saylı qətnamələrin prinsipi və məramı əsasında baxılmalıdır. Münaqişə aparan tərəflər isə bu məqamlara diqqət yetirilməyə çağırılıdır: atəşə 8-9 mayda son verilsin. 1994-cü ilin 18 fevralında qəbul olunan protokol əsasında və ən az müddətdə hüquqi razılaşma sənədinin əldə olunması üçün iş aparılmalıdır. Bununla yanaşı, həll mexanizmləri araşdırılarkən hərbi əməliyyat və düşmənçilik-ədavət aparılmamalıdır, işğal olunmuş ərazilərdən hərbi qüvvələr çıxarılmalı və funksional kommunikasiya vasitələri bərpa olunmalı, qaçqınlar öz torpaqlarına geri qaytarılmalıdır. Tənzimləmə istiqamətində MDB Parlamentlərarası Assambleyasının nümayəndəsi V.F.Şumeyko və Assambleyanın Dağlıq Qarabağ üzrə sülhməramlı qrupunun rəhbəri M.Ş.Şerimkulovun göstərdiyi təşəbbüslər hər iki tərəflə razılaşdırılacaq.

### Bakının qətiyyəti ilə...

Maraqlı məqamlardan biri isə protokol hazırlanan zaman rəsmi Bakının ortaya qətiyyət qoyması olmuşdu - qeyd edək ki, əvvəlcə protokolun mayın 5-də imzalanması nəzərdə tutulmuşdu. Həmin sənədi Azərbaycan Milli Məclisinin vitse-spikeri Afiyəddin Cəlilov, Ermənistan Milli Məclisinin sədri Babken Ararktsyan, "Qarabağın erməni icması" adından qondarma qurumun "parlament sədri" Karen Baburyan, MDB ölkələri Parlamentlərarası Assambleyanın sədri Vladimir Şumeyko, Qırğızıstan Ali Sovetinin sədri Medetkan Şerimkulov, Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi Vladimir Kazimirov və MDB ölkələri Parlamentlərarası Assambleya Şurasının katibliyinin rəhbəri Mixail Krotov imzalamalı idi. A.Cəlilovdan başqa hamı bu sənədi imzaladı - Cəlilov isə imzalamaqdan imtina etdi. Görüşün yeddi iştirakçısından altısının imzaladığı sənəd faks ilə Moskvaya göndərildi. Bu sənədin 6 nəfər tərəfindən imzalanmış kserosurətini isə Azərbaycan tərəfindən imzalanması üçün Bakıya ATƏT-in Minsk qrupundakı Rusiyanın təmsilçisi Vladimir Kazimirov gətirib. O, mayın 8-də Azərbaycan tərəfinə yenidən bu protokolu imzalamaq təklif etdi. Azərbaycan isə sənədə Qarabağın azərbaycanlı icmasının rəhbəri, o dövrdə Şuşa rayon İcra Hakimiyyətinin başçısı Nizami Bəhmənovun adını əlavə etdi. Beləliklə, sənəd Azərbaycanın qətiyyəti ilə yeni formatda imzalandı.

### Sabahın təməlini qoyan dünən...

Bu sənədin imzalanması Azərbaycan dövlətçiliyinin qorunması, torpaqların işğaldan azad edilməsi istiqamətində aparılan fəaliyyətin gücləndirilməsi üçün mühüm xarakter daşıyırdı. O baxımdan ki, bu gün Azərbaycan iqtisadiyyatının güclənməsi, dövlət büdcəsinin və hərbi xərclərin artırılmasında mühüm rola malik, ulu öndər Heydər Əliyevin qurduğu güclü, qüdrətli və varlı Azərbaycanın əsas stimulu "Əsrin müqaviləsi"nin imzalanmasına məhz bu atəşkəsin nəticəsində nail olundu.

Tarix sonradan sübut etdi ki, bu strateji qərar Azərbaycanın gələcək zəfərinin əsasını təşkil edib. Atəşkəs dövründə güclü dövlət və müasir ordu quruculuğu həyata keçirildi, milli birlik daha da möhkəmləndi. Nəticədə, İkinci Qarabağ Müharibəsi zamanı Azərbaycan Ordusu möhtəşəm qələbə qazanaraq torpaqlarımızı işğaldan azad etdi və ölkəmizin ərazi bütövlüyünü bərpa etdi. Bu gün Bişkek Protokolu yalnız atəşkəs sənədi kimi deyil, Azərbaycanın xilası və Böyük Zəfərə aparan strateji yolun başlanğıcı kimi baxılır...

*P.İSMAYILOV*

# Hərbçilərimiz mina terrorunun qurbanı olub

Azərbaycan dünyada mina terrorundan ən çox əziyyət çəkən ölkələrdən biridir. 30 illik işğal dövründə Ermənistan xeyli sayda hərbi cinayətlər törədib ki, bunların sırasında mina terroru da əsas yerlərdən birini tutur. Ermənistanın mina terroru hələ də davam edir.

**Bu dəfə Kəlbəcər ərazisində...**

Belə ki, mayın 11-də Azərbaycan Ordusunun hərbi qulluqçuları Hüseynov Məhəmməd Əlibaba oğlu və Qaflanov Kamil Cəmil oğlu xidməti vəzifələrini yerinə yetirərkən Kəlbəcər rayonu ərazisində minaya düşüblər. Müdafiə Nazirliyindən verilən məlumata görə, xəsarət alan hərbi qulluqçular yaxınlıqdakı tibb müəssisəsinə təxliyə ediliblər. Dərhal ilkin tibbi yardım göstərilən hərbi qulluqçuların vəziyyətləri stabildir, hazırda hərbi tibb müəssisəsində müalicələri davam etdirilir.

Qeyd edək ki, 44 günlük Vətən müharibəsindən sonra artıq 400 nəfərdən çox Azərbaycan vətəndaşı Ermənistanın mina terrorunun qurbanına çevrilib. Bu, yalnız fiziki deyil, həm də insanların psixoloji və sosial baxımdan dərindən təsirləndiyi ciddi bir problemdir. İşğal dövründə ərazilərimizə basdırılmış minalar regionda qalıcı sülhün bərqərar olmasına ciddi təhdid yaradır. Bu təhlükənin qarşısının alınması üçün beynəlxalq əməkdaşlıq və yardımlar olduqca vacibdir. Eyni zamanda, Ermənistanın minalarla çirkləndirdiyi ərazilərdəki humanitar vəziyyətin ciddi şəkildə nəzərə alınması və Ermənistanın beynəlxalq hüquq çərçivəsində məsuliyyətə cəlb edilməsi aidiyyəti beynəlxalq qurumlar qarşısında mühüm bir öhdəlik olaraq qalmaqdadır. Minaların məqsədli şəkildə basdırılması insan hüquqlarının ciddi şəkildə pozulmasına, regionda sülhün və təhlükəsizliyin bərpasını çətinləşdirməyə səbəb olur.



**Qayıdış prosesi üçün ciddi manea...**

Digər tərəfdən, ərazilərimizdə basdırılmış minalar və partlamamış hərbi sursatlar işğaldan azad edilmiş bölgədə bərpa və yenidənqurma işlərinin icra edilməsinə, keçmiş məcburi köçkünlərin təhlükəsiz şəkildə öz yurdlarına qayıdışına və bu torpaqlarda yaşayışına ciddi manea törədir. Ermənistan tərəfindən 30 ilə yaxın işğal dövründə basdırılmış minaların dəqiq xəritələrinin təqdim olunmaması isə onların beynəlxalq hüququn və beynəlxalq humanitar hüququn norma və prinsiplərinə hörmətsizliyini hələ də açıq şəkildə nümayiş etdirməkdədir. Xüsusilə, mina qurbanlarının sayının artmasının əsas səbəblərindən biri Ermənistanın üzərinə götürdüyü öhdəliyə zidd olaraq dəqiq mina xəritələrini ölkəmizə verməməsidir.

Məlumdur ki, müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil vermişdi. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür. Rəsmi Bakı dəfələrlə Ermənistana düzgün xəritələrin verilməsi ilə bağlı çağırış edib. Nəzərə almaq lazımdır ki, mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir. Ermənistanın minaları təmas xəttindən kənarda da basdırmasının məqsədi mülki insanların daha çox itki verməsi məqsədi daşıyır. Hazırda azad olunmuş ərazilərdə böyük quruculuq işləri həyata keçirilir. Həmin ərazilərdə mina qurbanı olanlar da daha çox quruculuq işləri ilə məşğul olan mülki şəxslərdir. Bu fakt bərpa işlərinin daha sürətli aparılmasına ciddi əngəl törədir.

**Müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil vermişdi. Lakin araşdırmalar nəticəsində məlum oldu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür. Rəsmi Bakı dəfələrlə Ermənistana düzgün xəritələrin verilməsi ilə bağlı çağırış edib. Nəzərə almaq lazımdır ki, mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, insanlıq əleyhinə törədilən cinayətdir.**

Ona görə də, müvafiq beynəlxalq təşkilatlar, bütövlükdə dünya ictimaiyyəti Azərbaycanın çağırışlarına adekvat cavab verməli və bütünlüklə, dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi üçün rəsmi İrəvana təzyiq göstərilməlidir.

**Beynəlxalq birlik laqeyd qalmamalıdır!**

Ölkəmiz beynəlxalq ictimaiyyəti mütəmadi olaraq Ermənistanın mina terroru barədə məlumatlandırır, müxtəlif platformalar çərçivəsində bu yöndə tədbirlər keçirir. Məqsəd beynəlxalq birliyin diqqətini problemin həllinə yönəltməkdir. Bütün bunları nəzərə alaraq, beynəlxalq ictimaiyyət minatəmizləmə fəaliyyətlərinin təxirəsalınmazlığını qəbul etməli, Azərbaycanın davam edən minatəmizləmə səylərinə dəstək olmalıdır. Çünki sözügedən ərazilər minalarla həddən artıq çirkləndirilib. Müsbət haldır ki, ölkəmizin dostları bu istiqamətdə öz dəstəyini göstərir. Bütün bunlarla yanaşı, müvafiq beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin parlamentləri, insan haqlarının müdafiəsi ilə məşğul olan qurumlar Azərbaycana qarşı davam etdirilən mina terroruna biganə qalmamalıdır.

*Nardar BAYRAMLI*

# Dayanıqlı inkişaf göstəriciləri

## Dörd ayda 40 milyard manata yaxın ÜDM istehsal olunub

2026-cı ilin yanvar-aprel aylarında Azərbaycanda iqtisadi inkişaf dinamikası qeydə alınıb. Bu dövrdə ölkəmizdə 39 milyard 875 milyon manat həcmində ümumi daxili məhsul (ÜDM) istehsal olunub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 0,2 faiz artım deməkdir. Əhalinin hər nəfərinə düşən ÜDM təxminən 4 min manata bərabər olub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0,7 faiz olmaqla, nolları 5 milyard 360,3 milyon manatdan çox təşkil edib və büdcəyə proqnozdan əlavə 108,3 milyon manat vəsait ödənilib. 2025-ci ilin müvafiq dövrünə nisbətən bu sektordan daxilolmalar 412,3 milyon manat və ya 8,3 faiz artıb.

Bu müddət ərzində dövlət büdcəsinin xərcləri 10 milyard 933,4 milyon manat proqnoza qarşı 10 531,1 milyon manat məbləğində icra edilib ki, bu da olub.

**Valyuta ehtiyatları 88 milyard dollara yaxınlaşıb**

Cari il mayın 1-nə Azərbaycanın strateji valyuta ehtiyatları 87 milyard 916,2 milyon dollar təşkil edib. Bu, dörd ayda 3,4 faiz və ya 2,9 milyard manat artım deməkdir. Ötən il mayın 1-nə nisbətən isə 15 faiz artımdır. Eləcə də, xarici dövlət borcu 4,6 milyard dollar təşkil edib ki, bu, son 4 ayda düşən borcun həcmi təxminən 490 dollardır. Bütün bu amillər Azərbaycanın öz iqtisadi potensialı sayəsində xarici borcu tam bağlamağa imkan verir.

**Əhalinin gəlirləri və orta aylıq əməkhaqqı artıb**

2026-cı ilin yanvar-aprel aylarında əhalinin nominal gəlirlərində, bank əmanətlərində, ünvanlı sosial yardımın məbləğində, muzdlu işçilərin orta aylıq əməkhaqqında da artımlar qeydə dövrünə nisbətən 5,6 faiz olub. Bu isə əhalinin real gəlirlərinin və orta aylıq əməkhaqqının inflyasiyanı bir neçə faiz-bənd üstələdiyini göstərir. Nəticədə həm əhalinin orta aylıq əməkhaqqı, həm də real gəlirləri inflyasiyanı üstələməklə onların sosial rifah vəziyyətinə müsbət təsir edib.

**5,3 milyard manata yaxın investisiya qoyuluşu**

Cari ilin yanvar-aprel aylarında öl-

| İqtisadi artım, milyon manat | | |
|---|---|---|
| Ümumi daxili məhsul (ÜDM) | 39 875,1 | +0,2% |
| neft-qaz ÜDM | 12 135,0 | -0,9% |
| qeyri neft-qaz ÜDM | 27 740,1 | +0,7% |

| Sosial rifah və inflyasiya | | |
|---|---|---|
| Əhalinin nominal gəlirləri, milyon manat | 28 702,4 | +8,8% |
| Orta aylıq nominal əməkhaqqı[2], manat (2026-cı ilin yanvar-mart ayları üzrə) | 1 151,5 | +6,2% |
| İnflyasiya (İstehlak qiymətləri indeksinin artımı) | x | +5,6% |




minla ifadədə 27 milyard 740 milyon manat təşkil edib. ÜDM-in strukturunda aparıcı sahə kimi sənaye sektorunda məhsul həcmi 0,3 faiz artaraq 21,2 milyard manata bərabər olub. Nəqliyyat və anbar təsərrüfatı sahəsi üzrə 7,4 milyard manat, informasiya və rabitə xidmətləri üzrə 1,3 milyard manat əlavə dəyər yaradılıb. Aqrar sektorun milli istehsalda payı 2 milyard 536,9 milyon manat dəyərində olmaqla, ötən ilin eyni dövrü ilə müqayisədə 2 faiz artım nümayiş etdirib. Yanvar-mart ayları ilə nisbətdə isə aqrar sektor daha 1 faiz böyüyüb.

**Büdcədə qeyri-neft yığımları 5 milyard manatı ötüb**

2026-cı ilin yanvar-aprel aylarında fiskal yığımların artımında da yüksək dinamika qeydə alınıb. Bu dövrdə büdcənin gəlirləri 13 milyard 564 milyon manat təşkil edib ki, bu da proqnozu 99 milyon manat və ya 0.7 faiz üstələyib. Yığımlarda qeyri-neft-qaz sektorundan daxilolmaların həcmi daha çox artıb. Belə ki, qeyri-neft yığım-96,3 faiz təşkil edir. Beləliklə, dövlət büdcəsində 2,6 milyard manatdan çox profisit (büdcə artıqlığı) yaranıb.

**Sosial sığorta yığımları 2,2 milyard manatı üstələyib**

Ötən dörd ay ərzində muzdlu işçi sayının və əməkhaqqı fondunun "ağarması" prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 2 milyard 210,6 milyon manatdan çox olub, proqnozdan əlavə 117,9 mln. manatdan çox vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 1 milyard 485,5 milyon manata yaxın təşkil edib. İşsizlikdən sığorta haqları üzrə daxilolmalar 78,5 milyon manata yaxın olub, proqnozdan əlavə 3,3 mln. manata yaxın vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 61,3 milyon manatı ötüb.

İcbari tibbi sığorta haqları üzrə daxilolmaların həcmi 339,8 milyon manatdan çox olub, proqnozdan əlavə 9,9 mln. manata yaxın vəsait ödənilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 229,1 milyon manatdan çox borc portfelinin daha 7,8 faiz azalaması deməkdir.

Azərbaycan hazırda valyuta rezervləri və xarici borcun vəziyyətinə görə, dünyanın ən sabit və əlverişli ölkələri sırasında yer alır. Cənubi Qafqaz ölkələrində borcun strateji rezervlərin nisbətinə görə də, Azərbaycan ən yaxşı mövqeyə malikdir. Ölkəmizin strateji valyuta ehtiyatlarının həcmi borcu 19 dəfə üstələyir. Xarici borcun ÜDM-də payı isə 6 faiz olmaqla dünya göstəricilərindən qat-qat aşağıdır. Azərbaycan xarici borcun bu nisbətinə görə, MDB, Asiya və Şərqi-Avropa regionu ölkələrinin əksəriyyətini üstələyir. Cənubi Qafqaz regionu ölkələrində xarici borcun ÜDM-də nisbəti 40-50 faizə bərabərdir. Ermənistanın xarici borcu 12,5 milyard dollar olmaqla ÜDM-in 54 faizini təşkil edir. Yaxud, Gürcüstanın borc yükünün ÜDM-ə nisbəti 43 fazidən yuxarıdır. Ermənistanda adambaşına düşən xarici borc 4,2 min dollar, Gürcüstanda isə 2,8 min dollar təşkil edir. Azərbaycanda isə adambaşına alınıb. Əhalinin nominal gəlirləri 8,8 faiz çoxalaraq 28,7 milyard manatı ötüb. İqtisadiyyata kredit qoyuluşları 8,8 faiz artaraq 32,4 milyard dollara yaxınlaşıb. Fiziki şəxslərin banklardakı əmanətləri 12,5 faiz çoxalaraq 16,9 milyard manatı ötüb.

Ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı və maaşlarında da dinamika qeydə alınıb. Belə ki, muzdlu işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,2 faiz artaraq 1151,5 manata çatıb. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub. Özəl müəssisələrdə çalışan işçilərin orra nomainla gəlirləri 1400-2000 manat civarında olub ki, bu da biznes sektorunda fəalllığın nəticəsi hesab edilə bilər..

Qeyd edilən dövrdə istehlak qiymətləri indeksi əvvəlki ilin müvafiq kəmizdə sərmayə axıcılığı da dayanıqlı xarakter daşıyıb, əsas kapitala investisyalar 5 milyard 275 milyon manat təşkil edib ki, bu da, 2,6 faiz artım deməkdir. Ümumilikdə, son 1 ildə qeyri-neft-qaz sektoruna investisiya qoyuluşu 12,4 faiz azalaraq 3 milyard 211,9 milyon manat təşkil edib.

Əsas kapitala yönəldilmiş investisiyaların təxminən 75 faizi daxili investisiyalardır.

Cari ilin 4 aylıq makroiqtisadi göstəriciləri onu təsdiqləyir ki, ölkə iqtisadiyyatının inkişafında ağırlıq mərkəzi tamamilə qeyri-neft sektorunun üzərinə transformasiya olunmaqdadır və hökumətin neft ÜDM-dən qeyri-neft ÜDM-ə keçid strategiyası özünü doğrultmaqdadır. Hökumətin yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz sektorunun tədricən daralacağı şəraitdə iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq.

*E. CƏFƏRLİ*

# Aİ-də islahatlar aparılacaqmı?

## Almaniya islahatlar məqsədilə altı maddəlik plan təqdim edib

Hazırda mürəkkəb geosiyasi proseslər fonunda Avropa İttifaqı (Aİ) daxilində ziddiyyətlər artmaqdadır. Məhz ziddiyyətlər və fikir ayrılıqları səbəbindən Aİ-yə üzv ölkələr müxtəlif məsələlərlə bağlı qərar qəbul edə bilmir. Prosedur qaydalarına əsasən üzv ölkələrdən biri hansısa sənədin əleyhinə çıxarsa, o sənəd qəbul oluna bilməz. Xüsusilə, Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar daha çox Macarıstan və Slovakiya Brüsselin qərarlarına qarşı veto hüququndan istifadə ediblər. Rəsmi Brüssel, Aİ-nin aparıcı ölkələri vəziyyətdən çıxmaq üçün platforma birlik daxilində islahatları zəruri hesab edir.

### Veto hüququnun ləğvi təklif olunur

Yeri gəlmişkən, Almaniya xarici işlər naziri Yohann Vadeful Avropa İttifaqında islahatlar üçün altı maddəlik plan təqdim edib. Nazir planında Aİ-nin, xüsusən də xarici siyasət və təhlükəsizlik sahələrində daha effektiv olması üçün genişmiqyaslı islahatların həyata keçirilməsini təklif edib. Getdikcə daha çox Avropa İttifaqı ölkəsi qərar qəbul edilməsində veto hüququnun ləğvini dəstəkləyir. Belə ki, veto hüququ bir ölkəyə bütün ittifaqın qərarlarını bloklamağa imkan yaradır. Alman nazir də məhz ayrı-ayrı ölkələr tərəfindən uzunmüddətli bloklanmaların qarşısını almaq üçün xarici siyasət məsələlərində yekdillik prinsipinin ixtisaslı səs çoxluğu ilə əvəz edilməsinə çağırıb.

Yohann Vadefulun islahat təklifləri arasında yeni üzvlərin mərhələli şəkildə qəbul edilməsi yolu ilə Aİ-nin genişlənməsinin sürətləndirilməsi də var. Almaniya kansleri Fridrix Merts xarici işlər nazirinin planını dəstəkləyərək bu təşəbbüsün lehinə çıxış edib.



### Daxili ziddiyyətlər artır

Son illər "qoca qitə"də siyasi böhran da artmaqdadır. Lakin Qərbdə, Avropada təkcə siyasi dəyərlər aşınmaya məruz qalmır, eyni zamanda, ideoloji, mənəvi və dini ayrı-seçkilik artır, sivilizasiyaların toqquşması tezisi təbliğ edilir. Arzuolunandır ki, Avropada belə qarşıdurma ssenarilərinə son qoyulsun, islamofobiya, irqçilik, diskriminasiya əvəzinə tolerantlıq, multikulturalizm seçilsin, bəşəri dəyərlər təbliğ və təşviq edilsin. Lakin proseslər göstərir ki, Avropada mövcud olan bu zərərli tendensiyaya son qoyulması hazırkı dönəmdə real görünmür. Çünki bütün bunların fonunda miqrant problemləri artır, demokratiya və insan haqları məsələlərində ziddiyyətlər güclənir.

Bu neqativ hallar bir sıra təşkilatların hesabatlarında da əksini tapır. Perspektiv üçün proqnozlar isə nikbin deyil. Belə ki, Avropa İttifaqının Əsas Hüquqlar Agentliyinin (FRA) son hesabatında bildirilir ki, yoxsulluq səviyyəsinin artması, demokratiyaya hücumlar, irqçilik və ksenofobiya, eləcə də miqrasiya problemləri 2024-cü ildə Avropa İttifaqında fundamental hüquqlar üçün əsas təhdidlər olub. Təşkilatın hesabatına əsasən, yaşayış xərclərinin, xüsusən də enerji qiymətlərinin artması ona gətirib çıxarıb ki, insanların 20 faizi (hər beş nəfərdən biri) səfalət içindədir.

### Tramp Brüsseli növbəti dəfə hədələyib

Agentlik, miqrasiya təzyiqini nəzərə alaraq, dənizdə axtarış-xilasetmə əməliyyatlarını gücləndirməyi və miqrantlarla ünsiyyət üçün daha təhlükəsiz şərait təmin etməyi tövsiyə edir. FRA eləcə də dövlətin dinc yığıncaqlar və fikirləri ifadə etmək azadlığı hüququna münasibətdə həddən artıq müdaxiləsini pisləyir və qeyd edir ki, bu, mülki məkana təhdiddir, belə vəziyyət ictimai işlərdə əhəmiyyətli iştirakın mövcud olmaması deməkdir və dezinformasiya ilə birləşdikdə bütün Avropa ölkələrində demokratiyaya xələl gətirir. "İyirmi yeddi üzv dövlət, həmçinin vətəndaş cəmiyyətinin müdafiəsini gücləndirməli, antisemitizm və islamofobiyanın artması barədə xəbərdarlıq edərək, həyəcanlı tendensiya kimi təsnif etdikləri irqçilik və dözülməzliyin bütün formaları ilə mübarizə aparmalıdır",-deyə hesabatda vurğulanır. Avropada sağlam düşüncəli liderlər mövcud problemlərin səbəblərini göstərməklə yanaşı, vəziyyətdən çıxış yolunun tapılmasını vacib hesab edirlər.

Göründüyü kimi, Avropa İttifaqı məkanında bütün sferaları əhatə edən problemlər artmaqdadır. Aİ dünyanın müxtəlif regionlarında proseslərə müdaxilə etməkdənsə, özünün daxili məsələlərinə daha çox diqqət ayırmalıdır. Avropa təsisatı isə bu problemləri yaxın zamanlarda həll etməyə hazır görünmür. Üstəlik, Aİ təhlükəsizlik amili ciddi təhdidə çevrilməkdədir. Bu arada, ABŞ-ın tarif təhdidləri də birlik üçün narahatlıq doğurur. Bugünlərdə Prezident Donald Tramp Aİ-ni növbəti dəfə hədələyib. O, bəyan edib ki, Avropa İttifaqı 4 iyul tarixinə qədər keçənilki ticarət çərçivəsini təsdiqləməsə, daha yüksək tarif dərəcələri ilə üzləşəcək: "Aİ-nin sazişin öz tərəfini yerinə yetirəcəyi təqdirdə, buna uyğun olaraq tariflərin sıfıra endiriləcəyinə söz verildi. Mən ölkəmizin 250 illik yubileyinə qədər vaxt verməyə razılaşdım, əks halda təəssüf ki, tarifləri dərhal daha yüksək səviyyəyə qalxacaq". Belə bir şəraitdə isə Brüssel vəziyyətdən çıxış yolu kimi daxili islahatların aparılmasını zəruri hesab edir.

*N.BAYRAMLI*

# Gələcək 10 ilin siyasi-iqtisadi istiqamətlərini müəyyənləşdirən görüş...

## Trampın Çin səfəri: nələr dəyişəcək?

Beynəlxalq aləmin maraqla gözlədiyi gün yetişib - bu gün ABŞ prezidenti Donald Trampın Çinə səfəri başlayır. Səfərdən öncə siyasi təhlilçilər, xüsusilə də, Qərb mediası yazırdı ki, bu səfər gələcək 10 ilin siyasi, hətta iqtisadi istiqamətlərini müəyyənləşdirə bilər. Bəziləri bu səfərin nəticəsi kimi qütbləşmənin daha da dərinləşəcəyini, bəziləri isə iqtisadi faktorun yenə də ön plana çıxacağını və müzakirələrin nəticəsi kimi hətta bir neçə münaqişənin öz həllini tapacağını düşünür. Tramp isə Çinə səfərindən sonra "Əla şeylərin baş verəcəyini" proqnozlaşdırır. ABŞ prezidenti bu barədə Truth Social-da yazıb - Donald Tramp Çinə səfəri zamanı həm Vaşinqtonu, həm də Pekini "əla şeylər"in gözlədiyini bəyan edib: "Səbirsizliklə özümün Çinə səfərimi, hər kəsin hörmət etdiyi lider Si Cinpinlə görüşümü gözləyirəm. Hər iki ölkə üçün əla şeylər olacaq".

Qeyd edək ki, Trampın səfəri 13-15 may tarixlərini əhatə edəcək. Bu, onun 2017-ci ildən bəri Pekinə ilk səfəri olacaq. Əvvəlki görüş mart ayının sonunda planlaşdırılsa da, səfər Yaxın Şərq müharibəsi səbəbindən təxirə salınmışdı. Liderlər ötən ilin payızında Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının Sammiti çərçivəsində görüşmüşdülər. Bu görüş isə 2019-cu ildən ilk görüş idi.

### Pekinə kimlər gedib?

CNBC Ağ Ev sözçüsünə istinadən Trampla birgə Çinə səfər etməsi planlaşdırılan iş adamlarının da adlarını yayıb. Bildirilir ki, "Tesla" şirkətinin baş direktoru İlon Mask, "Apple" şirkətinin baş direktoru Tim Kuk, "BlackRock" şirkətinin baş direktoru Larri Fink və "Boeing" şirkətinin baş direktoru Kelli Ortberq də daxil olmaqla, bir sıra böyük Amerika şirkətlərinin rəhbərlərinə Trampı bu səfərində müşayiət etmək üçün dəvət göndərilib.

Səfərdə həmçinin "Blackstone", "Mastercard", "Meta", "Micron", "Qualcomm" və "Visa" şirkətlərinin nümayəndələri də daxil olmaqla, bir sıra digər böyük korporasiyaların yüksək vəzifəli rəhbərlərinin də iştirakı gözlənilir. Qeyd edək ki, məlumata görə, Trampın Çin səfəri zamanı əsas müzakirə predmetləri kimi ticarət, süni intellekt, ixrac nəzarəti, Tayvan və İranla bağlı məsələlər qeyd olunub.

### Rusiya müzakirəsi də ola bilər...

Danışıqlar ölkələr arasında son zamanlar artan gərginlik fonunda baş tutacaq. Politico ABŞ-Çin münasibətlərinin Vaşinqtonun İrana kömək etməkdə ittihamları və ABŞ Dövlət Departamentinin üç Çin şirkətinə qarşı sanksiyalar tətbiq etməsi səbəbindən yeni bir gərginlik mərhələsinə qədəm qoya biləcəyini vurğulayır. Xatırladaq ki, məhdudiyyətlər İrana Yaxın Şərqdə ABŞ qüvvələrinə qarşı zərbələr üçün peyk görüntüləri təqdim etdiyi idda olunan "Meentropy Technology" (Hangzhou) Co. Ltd, "The Earth Eye" və "Chang Guang Satellite Technology" Co.-ya tətbiq edilib.

Reuters xəbər verir ki, Pekinin Rusiyaya dəstəyi də müzakirə mövzusu ola bilər. Qərb mediasının xəbərlərinə görə, Prezident Trampın Pekinə səfəri zamanı müzakirə etməyi planlaşdırdığı mövzulardan biri Rusiya-Çin münasibətləri və Çinin Moskvaya dəstəyi olacaq.



### İran amili - Pekin nə deyəcək?

Bəzi Qərb siyasətçiləri Trampın səfərini "Çin uğrunda mübarizə" kimi qiymətləndirir. Xatırladaq ki, mayın 6-da İranın xarici işlər naziri Abbas Əraqçi də Çinə səfər etmişdi. Bildirilir ki, Tehran üçün bu səfər Pekinin İranı dəstəkləməyə nə dərəcədə hazır olduğunu (ən azı BMT Təhlükəsizlik Şurasında) və İran məsələsində amerikalılara hansı güzəştləri edə biləcəyini dəqiqləşdirmək üçün fürsət idi. Təsadüfi deyildi ki, Əraqçinin Pekinə səfərindən əvvəl ABŞ Dövlət katibi Marko Rubio Çini Hörmüz boğazını açmaq üçün İrana təzyiq göstərməyə çağırmışdı. Məlum olduğu kimi, Pekin ABŞ-ın İran limanlarını dəniz blokadasına salmasını kəskin şəkildə tənqid edərək, bunu son dərəcə təhlükəli adlandırmışdı.

Qeyd edək ki, Çin iqtisadiyyatı həqiqətən də Hörmüz boğazı vasitəsilə idxal olunan enerji təchizatından əhəmiyyətli dərəcədə asılıdır: Baş Gömrük Administrasiyasının məlumatına görə, Yaxın Şərq ölkənin neft istehlakının təxminən yarısını və mayeləşdirilmiş təbii qazının təxminən üçdə birini təşkil edir.

### Tayvan məsələsi həll ola bilər?

Səfərdən öncə Dövlət katibi Rubionun da açıqladığı kimi, iki lider arasında müzakirə olunacaq digər vacib mövzu Tayvan məsələsi olacaq. Bəllidir ki, bu məsələ Pekin üçün bütün qlobal geosiyasi münaqişələrdən vacibdir. Pekin Vaşinqtonu Çinin qanuni ərazisinə, Tayvan adasına silah tədarükünü azaltmağa (və ideal olaraq dayandırmağa) məcbur edə bilər. Bir sıra politoloqlar Tayvan məsələsindəki susqunluğun davam edə biləcəyini vurğulayır - bəziləri isə, ABŞ-ın burada da mühüm yeniliklərə imza atacağını proqnozlaşdırır. Əsas isə Rubionun açıqlamasıdır - Dövlət katibi qeyd edib ki, ABŞ-ın istər Tayvanda, istərsə də Hind-Sakit Okean bölgəsindəki başqa bir yerdə qeyri-sabitlik yaradan hadisələrə qətiyyən ehtiyacı yoxdur. ABŞ-ın isti münasibət göstərəcəyinə ümid edənlərin ən mühüm arqumenti isə Trampın Tayvan məsələsinin qarşılığında İran məsələsində daha çox güzəşt əldə edə biləcəyi ehtimalıdır.

### ABŞ rüsum siyasətində dəyişiklik edəcəkmi?

Bəzi nəşrlər bu səfərin ABŞ-ın daxili siyasi nizamına da təsirsiz ötüşməyəcəyini yazır. "Politic" bildirib ki, ABŞ prezidenti Donald Trampın Çin lideri Si Cinpinlə görüşmək üçün Çinə səfəri onun üçün ciddi bir sınaq olacaq - çünki Pekinlə potensial biznes sövdələşmələri respublikaçıların daha əvvələr Çinə qarşı səsləndirdikləri siyasi tənqidlərlə ziddiyyət təşkil edir. Nəşrin məlumatına görə, Respublikaçılar və Demokratlar Çinlə hər hansı potensial sövdələşmələr barədə narahatlıqlarını bildiriblər. Tramp administrasiyası daxilində bəzi müşavirlər prezidentdən Çindən ixraca məhdudiyyətləri saxlamağı tələb ediblər. Xüsusilə, avtomobil, yüksək texnologiyalı yarımkeçiricilər və əlaqəli texnologiyalar kimi sahələrdə bu vacib sayılır.

**P.İSMAYILOV**

# Vücudunun məzarından qalxan ruh

## Lev Tolstoyun "Dirilmə" romanı haqqında

əvvəli ötən sayımızda

Başqa sözlə, şərin hər növ fəndinin, iblisin hər dürlü silahının qarşısında yalnız dindən oxbatmaz, gülləkeçməz zireh geyinməklə duruş gətirmək olar. Bu baxımdan, həcminə görə "Hərb və sülh"dən az qala dörd dəfə, "Anna Karenina"dansa təqribən iki dəfə kiçik olan "Dirilmə" romanı da qaldırdığı kəskin ictimai-siyasi problemlərin aktuallığına, sanbalına baxmayaraq sələfləri kimi ilk növbədə etik-fəlsəfi roman, dini-mistik əsərdir.

Həm rus, həm də Avropa oxucusu iyirmi ildən bəriydi Tolstoydan yeni roman gözləyirdi, ona görə də kitab çap dəzgahının ağzından çıxar-çıxmaz isti-isti qoca qitənin bütün aparıcı dillərinə tərcümə olundu. Əslində, yeni iri əsərə qələm bulayacağını müəllif özü də özündən gözləmirdi, çünki əlli yaşınacan yazıb başa gətirdiyi iki ağır, sanballı romandan sonra bir də belə zəhlətökən işə girişməyəcəyinə söz vermişdi. Fəqət ilham, istedad, Yunqun təbirincə desək, kollektiv təhtəlşüurun görən gözü, danışan dili çox vaxt yazıçının fərdi iradəsiylə hesablaşmır, örtüyünə bürünüb yorğun canını dincə qoymuş Məhəmməd peyğəmbəri yerindən qaldıran mələk Cəbrayıl kimi yazıçını ilahi iradənin hökmünə tabe eləyir.

Ötən illər ərzində din-mənəviyyat mövzusunda bir neçə sərt, kəskin traktat yazsa da, onu insanlığın baş tacına çevirən fəlsəfi risalələri, əxlaqi postulatları, bəzən sadəlövh, bəzən də primitiv görünən etik imperativləri yox, hər cür beyin suyunu, quru nəzəriyyəni meynə kimi suvarıb göyərdib Hötenin nişan verdiyi yaşıl həyat ağacına sarmaşdıran misilsiz bədii istedadıydı. İnsanlara vaiz, filosof Tolstoydan çox, vəzi də, fəlsəfəsi də bədii sözə bükülmüş yazıçı Tolstoy maraqlıydı. Odur ki, Lev Nikolayeviç ahıl çağında yeni kurs götürmüş bədii-publisistik yaradıcılığının bütün vacib detallarını bir romanın içinə yığmaqla cari gerçəkliklərə dini-fəlsəfi don biçdi, dövrünün problemlərini əbədiyyət müstəvisinə çəkib onlara metafizik xarakter verdi, sosial naxoşluğa mistik sərxoşluğu dərman buyurdu. "Dirilmə" romanının savadlı cəmiyyətin bütün qatlarında maraqla qarşılanmağına bir səbəb də buydu ki, əsərdə xalqın hər bir təbəqəsindən olan personajlara yer verilmişdi, oxucu onların arasında qohumlarını, tanışlarını da, yüksək çinli dövlət məmurlarını da asanlıqla ayırd eləyə bilirdi.

***

Romanın yazılmasına ilk təkanı 1887-ci ildə Lev Nikolayeviçi ziyarət üçün Yasnaya Polyanaya getmiş dövrün məşhur hüquqşünas alimi, hakimi, dövlət xadimi, eyni zamanda natiqi, ədibi Anatoli Fyodoroviç Koninin yazıçıya danışdığı bir əhvalat vermişdi (hələ romana ad tapmadığı vaxtlarda müəllif əsərin qaralama variantını "Koninin povesti" adlandırırdı). Əhvalatın qısa məzmunu belədir: məhkəmə iclaslarının birində andlı münsiflərdən biri oğurluq üstündə mühakimə olunan fahişə qadını tanıyır. Cəmiyyətin ən aşağı qatına enmiş, üzü-gözü xəstəlikdən eybəcər hala düşmüş Rozaliya Onni adlı zavallı qadın onu tanıyan məhkəmə iclasçısının bir zamanlar şirnikdirib pis yola çəkdiyi məsum qız olur. Adam cavanlığında bu qızı ürəkdən sevibmiş, odur ki, keçmiş sevgilisini miskin, tapdanmış halda görmək onun vicdanını qıyama qaldırır, ürəyi üzünə durur. Gördüyü mənzərədən dərin sarsıntı keçirən iclasçı məhkəmədən sonra ober-prokuror Koninin yanına gedib bir vaxt qohumlarının evində qulluqçu kimi çalışan qızın başına gətirdiyini ona danışır, əməlindən peşman olduğunu, günahını yumaqdan ötrü həmin qadınla evlənmək istədiyini bildirir. Bunun ardınca adam niyyətini gerçəkləşdirmək üçün hərəkətə keçir, konkret hüquqi prosedurların icrasına girişir. Ancaq işin gedişində qadın həbsxanada ağır xəstəliyə yoluxub öldüyündən iclasçının günahından arınmaq niyyəti baş tutmamış qalır...

Tolstoy əvvəl-əvvəl Koniyə bu əhvalatı qələmə almağı məsləhət bilir, xeyli sonra ober-prokurordan səs çıxmadığını görüb, onu möhkəm təsirləndirmiş hadisəni özünün yazmağı üçün hüquqşünas dostundan süjetin halallığını istəyir. Koni söylədiyi əhvalatı böyük yazıçıya məmnuniyyətlə bağışlayır, üstəlik sevinir ki, özünü də bərk sarsıtmış bu kədərli qəziyyə Tolstoyun qələmində əbədiyyət qazanacaq.

Fəqət süjetin qaynağı yalnız bu deyil, romana düyün vuran hadisənin törədildiyi gecədən birbaşa müəllifin cavanlığına aparıb çıxaran qanlı bir cığır da ayrılır. Qəhrəmanı Nexlyudov kimi Tolstoy da gəncliyində bibisinin evində yaşayan qulluqçu qızı - Qaşa adlı qaravaşı yoldan çıxarıb bakirəliyini pozmuşdu. İşin üstü açılanda zavallı qızı qulluqdan da, evdən də qovmuşdular. Bioqrafına yazdığı məktubda yazıçı bu günahını xatırladır, onu çox tərifləməməyi, tərcümeyi-halındakı ləkələri gizlətməməyi xahiş eləyirdi. Lev Nikolayeviç cavanlıq səhvlərini arvadından da danmırdı, hətta uzun illərdən sonra yetmiş yaşlarında olan həmin Qaşanı cinayətinin canlı-başlı əşyayi-dəlili kimi Sofya Andreyevnaya göstərmişdi də.

***

Üç hissəli romanın elə ilk abzasından müəllifin niyyəti görünməyə başlayır:

"Daracıq bir yerə yığışmış yüz minlərlə insan övladı torpağı nə qədər təpikləyib eybəcər hala salsa da, heç bir şey bitirməsin deyə torpağın üstünü daşla nə qədər örtüb basdırsalar da, boy göstərən hər otu-əncəri nə qədər yolub atsalar da, daş kömür, neft yandırıb nə qədər tüstülətsələr də, ağacları nə qədər kəsib doğrayıb, heyvanları, quşları nə qədər perik salsalar da, bahar hətta şəhərdə də bahardır. Günəş yeri isitdikcə ot yalnız bulvardakı çəmənlikdə yox, kökünü qazdıqları hər yerdə, hətta sal daşların arasından da dirçəlib boy atıb yaşıllaşır, ağcaqayın, qovaq, meşəgilası yapışqan, ətirli yarpaqlarını açır, cökənin çırtlayan tumurcuqları şişirdi; dolaşalar, sərçələr, göyərçinlər yaz sevinciylə yuva qurur, gündə qızınan milçəklər divar dibində vızıldaşırdı. Bitkilər də, quşlar da, cücülər də, uşaqlar da sevincək olmuşdular. Amma adamlar - yaşlı-başlı adamlar həm özlərini, həm də biri-birini aldadıb incitməkdən usanmırdılar. Adamlar sanırdılar ki, mühüm, müqəddəs olan bu yaz səhəri, Allahın altındakı dünyanın cəmi məxluqata bəxş elədiyi bu gözəllik - insanı dincliyə, ünsiyyətə, məhəbbətə çağıran gözəllik deyil, mühüm olan da, müqəddəs olan da onların bir-birinə ağalıq eləməkdən ötrü uydurduqları şeylərdir".

davamı növbəti sayımızda



**F.Uğurlu**

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**






# Əsrləri aşan zərif ruh

## Məhsəti Gəncəvi söz və zəka simvoludur...

Onun şeirlərində qadın zəkasının qüdrəti, azad düşüncənin işığı və insan ruhunun incə çalarları elə bir ahənglə birləşir ki, əsrlər keçsə də bu poeziyanın nəfəsi köhnəlmir. Şərq poeziyasının zərif ruhu, sözün sehri ilə əsrləri aşaraq bu günə qədər gələn böyük Azərbaycan şairəsi Məhsəti Gəncəvi yalnız öz dövrünün deyil, bütün Şərq ədəbiyyatının ən parlaq simalarından biridir. Qədim Gəncə şəhərinin elm və mədəniyyətlə yoğrulmuş mühitində yetişən bu böyük söz ustadı Şərq qadınının yalnız zəriflik deyil, həm də müdriklik, iradə və yaradıcı qüdrət simvolu olduğunu sübut etdi. Bu səbəbdən onun adı əsrlərdir poeziyanın, sənətin və mənəvi zənginliyin rəmzi kimi hörmətlə çəkilir.

Bu gün şairənin anadan olmasından 937 il ötür. 1089-cu ildə dünyaya göz açmış Məhsəti Gəncəvi uzun və səmərəli ömür sürüb, müasiri dahi Nizami kimi mükəmməl təhsil alıb, poeziya, fəlsəfə, musiqi, şahmat və başqa sahələrdə dövrünün kişi sənətkarlarından heç də geri qalmayıb. Onun müxtəlif qaynaqlardan toplanmış 200-dən artıq rübaisi Orta əsrlər Azərbaycan renessansının klassik örnəkləri cərgəsində özünə əbədi yer tutub.

M.Gəncəvinin rübailərində sevgi, həyat, gözəllik, insan azadlığı və dünyanın faniliyi o qədər dərin və təsirli şəkildə təqdim olunur ki, oxucu hər misrada həm keçmişin nəfəsini duyur, həm də öz ruhunun səsini eşidir. Rübailərində tez-tez rast gəlinən bahar təsvirləri, gül və bülbül obrazları, məclis səhnələri və musiqi motivləri sadəcə dekorativ element deyil, insan ruhunun gözəlliyə ehtiyacının simvoludur. Bu obrazlar vasitəsilə şairə oxucuya həyatın faniliyinə baxmayaraq, hər anın dəyərini duymağı, sevincin qədrini bilməyi və mənəvi azadlığın işığını qorumağı aşılayır.

Məhsətinin ən böyük nailiyyəti, bir ömür bahasına qazandığı ən başlıca xoşbəxtliyi budur ki, o, şairə olaraq əbədi dirilik, ölməzlik qazandı. O, hüsnüylə, təravətli rübailəriylə, sətrəncdəki istedadıyla, musiqidəki səriştəsiylə, büründüyü şöhrət və diqqət haləsiylə ucaldı.

Ədəbiyyatşünasların fikrincə şəhər həyatının, şəhər mədəniyyətinin əsasını təşkil edən əsnaf təbəqəsini - sənət və peşə sahiblərini klassik şeirimizdə Məhsəti səmimiyyəti və Məhsəti qüdrəti ilə öyən ikinci sənətkar yoxdur. O, yaradıcılığının böyük bir hissəsini məhz bu zümrəylə bağlayaraq sənətkarlardan ibarət zəngin obrazlar yaradıb. Məhsəti irsinə bu prizmadan baxarkən onun əsl sənətkar böyüklüyünü anlayırıq və ədəbi hünərinin mahiyyətini dərk edirik. Məhsəti o sənətkarlarımızdandır ki, poetik yadigarlarının bəxtinə sərhədlərdən çıxmaq, ölkələr aşmaq və hər yerdə də qonaq kimi deyil, doğma kimi qarşılanmaq düşür.

Şərq qadınları şahmat oynamaqda yüksək istedad sahibi olublar. Sevimli şairəmiz Məhsəti Gəncəvi də bu müdrik oyunla maraqlanıb. Əmir Əhmədlə şahmat taxtası arxasında oyun zamanı Məhsətinin əqil və fərasəti, istedad və bacarığı sayəsində bədahətən dediyi rübailər onun şahmat oyununun incəliklərinə vararaq, ondan zövq almaq bacarığını göstərir. Azərbaycan qızının yüksək şahmat istedadı alman alimi, şərqşünas F.Meyerin də diqqətini cəlb edir. 1963-cü ildə Visbadendə alman dilində nəşr etdirdiyi “Gözəl Məhsəti” kitabında o, şairənin həyat və yaradıcılığını öyrənmək, onun ədəbi irsini toplayıb nəşr etmək sahəsində faydalı addım ataraq, Məhsətinin Gəncədə doğulduğunu, onun şair, musiqişünas, xanəndə olduğunu, həm də çox gözəl arfa çaldığını göstərmişdi.

Şairə 1181-ci ildə 92 yaşında dünyasını dəyişib. Məhsəti Gəncəvi həqiqi bir şairə oldu, dünyanı daha dərindən duydu, hiss etdi, insan ağrılarına biganə qala bilmədi... Bu, böyük xoşbəxtlik idi ki, ona nəsib olmuşdu. Onun adı Azərbaycan xalqının yaddaşında yalnız bir şairə kimi deyil, həm də milli-mədəni irsimizin ölməz simalarından biri kimi yaşayır. Çünki onun poeziyası insan ruhunun gözəlliyinə, həyatın mənasına və sevginin əbədi qüdrətinə yazılmış musiqili bir nəğmə təsiri bağışlayır. Elə buna görə də əsrlər keçsə belə, onun misraları hələ də ürəklərdə yaşayır, dillərdə səslənir və Şərq ədəbiyyatının səmalarında parlaq bir ulduz kimi işıq saçır...

***Yeganə BAYRAMOVA***



# Yeni epidemiya təhlükəsi

## Ölüm riski yüksəkdir...

Son günlər dünyada Hantavirusla bağlı xəbərlərin artması ictimai narahatlığı gücləndirib. Bəzi ölkələrdə virus təhlükəsinə qarşı ictimai yerlərdə maska istifadəsinin yenidən məcburi edilməsi məsələsi müzakirə olunur. Bir sıra Avropa ölkələrində Hantavirus təhlükəsi ilə bağlı izolizasiya tədbirləri görülüb. Hətta qonşu ölkələrin bir neçə vətəndaşı da virus səbəbilə karantinə alınıb. Bütün bunlar Azərbaycanda da “yenidən maska qadağaları tətbiq oluna bilərmi?” sualını gündəmə gətirib.

Səssizcə yaxınlaşan və çox vaxt ilk mərhələdə adi qrip əlamətləri ilə özünü gizlədən Hantavirus əslində insan həyatı üçün ciddi təhlükə yaradan viruslardan biri hesab olunur. Təbiətin görünməyən təhlükələri sırasında yer alan bu virusun yayılması təkcə tibbi problem deyil, həm də insanların gigiyena qaydalarına münasibətini, yaşayış şəraitini və gündəlik davranışlarını yenidən nəzərdən keçirməyə məcbur edən mühüm sağlamlıq məsələsidir.

**Ağciyərlər üçün ciddi təhlükə**

Mövzunu “Yeni Azərbaycan”a dəyərləndirən infeksionist-həkim Elnur Abdullayev bildirib ki, bu infeksiya dünyanın müxtəlif bölgələrində fərqli klinik formalarla müşahidə edilsə də, ən təhlükəli xüsusiyyətlərindən biri onun sürətli şəkildə ağciyər və damar sisteminə təsir göstərərək ağır tənəffüs çatışmazlığı yaratmaq potensialına malik olmasıdır:

“İnsanlar çox zaman bu virusun necə yayıldığını tam anlamadıqları üçün təhlükəni yalnız gəmiricinin dişləməsi ilə əlaqələndirirlər. Lakin praktikada ən çox rast gəlinən yol siçan və digər gəmiricilərin sidiyi, nəcis qalıqları və tüpürcəyi ilə çirklənmiş mühitdə yaranan mikroskopik hissəciklərin nəfəs vasitəsilə ağciyərlərə daxil olmasıdır. Xüsusilə, uzun müddət bağlı qalmış anbarların, kənd evlərinin, zirzəmilərin, taxıl saxlanılan yerlərin və köhnə tikililərin təmizlənməsi zamanı virus havaya qalxaraq insan orqanizminə daxil ola bilir”.

**Hantavirus Azərbaycanda yayıla bilər?**

**Mövsümi virus infeksiyaları ilə eyni simptomlar...**

E.Abdullayev qeyd edib ki, hantavirusun əsas təhlükəsi onun ilkin mərhələdə adi qrip və ya respirator infeksiya kimi görünməsidir: “Xəstəlik əksər hallarda yüksək hərarət, güclü halsızlıq, əzələ ağrıları, baş ağrısı, bel və qarın nahiyəsində diskomfort hissi ilə başlayır. Bir çox insan bu simptomları mövsümi virus infeksiyası hesab edərək gec müraciət edir, halbuki bir neçə gün sonra vəziyyət qəfil ağırlaşaraq nəfəs darlığı, quru öskürək, sinədə sıxılma hissi, arterial təzyiqin düşməsi və ağciyərlərdə maye toplanması ilə müşayiət olunan həyati təhlükəli mərhələyə keçə bilər. Xüsusilə hantavirusun ağciyər sindromu adlandırılan forması intensiv terapiya tələb edən vəziyyət yarada bilir və vaxtında müdaxilə edilmədikdə ölüm riski əhəmiyyətli dərəcədə artır”.

**Kimlər risk qrupuna daxildir?**

İnfeksionistin sözlərinə görə, risk qrupuna daxil olan insanlar arasında kənd təsərrüfatı ilə məşğul olan şəxslər, fermalarda çalışanlar, taxıl və yem anbarlarında işləyən işçilər, ovçular, meşə və çöl ərazilərində uzun müddət qalan şəxslər, həmçinin gigiyenik şəraiti zəif olan və gəmirici populyasiyasının çox olduğu mühitlərdə yaşayan insanlar xüsusi yer tutur: “Bu şəxslər virusla təmas ehtimalı daha yüksək olan mühitlərdə fəaliyyət göstərirlər. Bununla yanaşı, istifadə olunmayan evlərin və ya bağ sahələrinin təmizlənməsi zamanı qoruyucu maska və əlcəkdən istifadə etməyən insanlar da ciddi risk altında hesab edilir. Çünki quru nəcis və sidik qalıqları süpürülərkən virus hissəcikləri havaya qarışaraq nəfəs yollarına daxil ola bilir.

Hantavirusdan qorunma tədbirləri tibbdə xüsusilə vacib hesab olunur və burada əsas məqsəd gəmiricilərlə təmasın minimuma endirilməsi, yaşayış və iş yerlərində gigiyenanın qorunması, ərzaqların qapalı şəkildə saxlanılması və gəmirici izləri olan məkanların təmizlənməsi zamanı respirator maska, əlcək və dezinfeksiyaedici vasitələrdən istifadə edilməsidir. Tövsiyə olunur ki, gəmirici qalıqları olan sahələri quru şəkildə süpürmək əvəzinə əvvəlcə dezinfeksiyaedici məhlulla isladaraq təmizləsinlər, çünki bu üsul virus hissəciklərinin havaya yayılmasının qarşısını əhəmiyyətli dərəcədə alır.

Unutmaq olmaz ki, hantavirus nadir rast gəlinən infeksiya olsa da, ağırlaşma riski yüksək olan xəstəliklər sırasındadır. Xüsusilə, yüksək hərarət, güclü halsızlıq və tənəffüs çətinliyi yaranarsa, xəstənin vaxt itirmədən təcili tibbi yardım xidmətinə müraciət etməsi həyati əhəmiyyət daşıyır”.

**Ölkəmiz üçün təhlükə var?**

Səhiyyə Nazirliyinin Xüsusi Təhlükəli İnfeksiyalara Nəzarət Mərkəzindən verilən məlumata görə, hazırda Azərbaycan ərazisində hantavirus infeksiyasına şübhəli və ya təsdiqlənmiş yoluxma halları qeydə alınmayıb:

“Bu virus ölkəmiz üçün endemik hesab olunmur və mövcud epidemioloji vəziyyət virusun yayılma riskinin aşağı olduğunu göstərir.

Hantavirus əsasən siçan və digər gəmiricilərin sidiyi, nəcisi və tüpürcəyi ilə təmas zamanı yoluxa bilər. Bu səbəbdən risk daha çox gəmiricilərlə sıx təmas olan yerlərdə mövcuddur.

Profilaktik məqsədlə əhaliyə bir sıra sadə gigiyenik qaydalara əməl etmək tövsiyə olunur: yaşayış və iş yerlərində sanitar-gigiyenik qaydalara riayət etmək, gəmiricilərin məskunlaşmasının qarşısını almaq və mütəmadi deratizasiya tədbirləri görmək, açıq sahələrdə və köhnə, uzun müddət istifadə olunmayan məkanlarda təmizlik işləri apararkən qoruyucu vasitələrdən istifadə etmək, gəmiricilərlə birbaşa təmasdan çəkinmək.

Hazırkı vəziyyət əhali üçün narahatlıq doğurmur və epidemioloji durum müvafiq qurumlar tərəfindən daim nəzarətdə saxlanılır”.

***Yeganə BAYRAMOVA***


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5340**
**Sifariş: 604**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova